28 fevral 2020-ci il
№08 (8872)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

## Bu sayımızda

**Yaddaş hekayəsi...**
➩səh.2

**Təhsil naziri Hacıqabul şəhərindəki məktəb-liseydə olub**
➩səh.3

**"GəncLİK" liderləri bir masa ətrafında**
➩səh.4

**İştirak et, rəy və təkliflərini bildir**
➩səh.6

# Bəşəriyyətə və insanlığa qarşı cinayət

## Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib




1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 28 il ötür. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, 155 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini anırlar.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

➩Ardı səh.2

# Rəqabətlilik naminə

## *Sevinc Məmmədova:* "Corc Vaşinqton Universiteti ilə əməkdaşlıq Azərbaycan ali təhsilinin inkişafına müsbət töhfələrini verəcək"

Məlumdur ki, son illərdə inkişaf etmiş ölkələr davamlı və uğurlu iqtisadi tərəqqiyə məhz ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi sayəsində nail olublar. Bu qlobal tendensiya ölkəmizin ali təhsil sistemi qarşısında da mühüm vəzifələr qoyub. Ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsi bu sahədə bir sıra layihələrin həyata keçirilməsini zərurətə çevirib. Ali təhsildə keyfiyyət dəyişikliklərinin əsasını qoyan bu layihələrin icrası cəmiyyət həyatının müxtəlif sahələri üçün milli kadrların yetişdirilməsi ilə yanaşı, gənclərin elmə, müasir texnologiyalara və qabaqcıl biliklərə marağını xüsusilə artırıb. Bu məqsədlə də Azərbaycan Respublikası vətəndaşlarına aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması istiqamətində "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" hazırlanıb. Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir. Bu sahədə atılan ən mühüm addımlardan biri kimi, cari ildə Təhsil Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə ABŞ-ın nüfuzlu Corc Vaşinqton Universiteti arasında beynəlxalq ikili diplom proqramının tətbiqi sahəsində memorandumun imzalanmasını göstərmək olar. Bu proqram Azərbaycan gənclərinə nələri verəcək? Ali təhsil sistemimizə nə kimi töhfələr verəcək? Bu və ya digər suallarımızı sazişin hazırlanıb ərsəyə gəlməsində əməyi olan Corc Vaşinqton Universitetinin proqram direktoru Sevinc Məmmədova cavablandırır.

*– Birillik müzakirələrdən sonra ADPU və Corc Vaşinqton Universiteti arasında ikili diplom proqramına artıq start verildi. Proqram üzərində işləyərkən hansı məqamlara diqqət yetirildi? Çətinliklər oldumu və nə ilə bağlı idi? Layihənin hər iki tərəfin kifayət qədər iradəsi hesabına başa gəldiyini söyləyə bilərikmi?*

– Qeyd edilməlidir ki, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Corc Vaşinqton Universiteti arasında ikili diplom proqramının reallaşması hər iki tərəfin kollektiv səyləri sayəsində mümkün oldu. Təhsildə siyasət və liderlik proqramının hazırlanmasında hər iki tərəfdən kifayət qədər yüksək bacarıqlı kadrlar cəlb olunmasa idi, il ərzində bu qədər önəmli və böyük bir layihənin imzalanmasına heç cürə nail ola bilməzdik.

➩Ardı səh.8

# Azərbaycan startapları sərhədləri aşır

Oruc MUSTAFAYEV

Azərbaycan startapları sərhədləri aşır. Bu günlərdə Amerika Birləşmiş Ştatlarının (ABŞ) Silikon vadisində Azərbaycan İnnovasiyalar Evinin açılışı olub. İnnovasiyalar Evi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi tərəfindən yaradılıb.

Stanford Universitetində keçirilən açılışda 100-ə yaxın azərbaycanlı iştirak edib. Mərasimdə şirkət nümayəndələri, startapçılar və Stanford Universitetinin professorları çıxış edərək layihənin əhəmiyyəti haqqında danışıblar.

İnnovasiyalar Evində 4 startap fəaliyyətə başlayıb və cari ilin sonuna startapların sayı 12-yə çatdırılacaq.

"INNOLAND" inkubasiya-akselerasiya Mərkəzinin direktoru Məmməd Kərimovun sözlərinə görə, İnnovasiyalar Evinin əsas fəaliyyəti Azərbaycanın startaplarına dəstəkdir. Başqa sözlə, burada öz biznesini qurmaq və genişləndirmək istəyənlər İnnovasiyalar Evinin xidmətlərindən istifadə edə bilər. Hər bir yeni startapçının onun üçün nəzərdə tutulmuş üç aylıq sürətləndirici proqrama qoşulması mümkündür. Onlar burada müxtəlif Startap nümayiş günlərində də iştirak edəcək, investorlarla görüşəcəklər.

İnnovasiyalar Evi Azərbaycan və ABŞ-da yaşayan azərbaycanlılar tərəfindən yaradılan startapları birləşdirən Silikon vadisi arasında körpü rolunu oynayacaq. O, həmçinin startap layihələrində iştirak edən yerli əhalini dəstəkləyəcək. Startapçılar Silikon vadisində səyahət edəcək, təcrübə qazanacaq və startaplarını təkmilləşdirəcəklər.

# Dərsin müasirliyinin psixopedaqoji sirləri

Dərsin müasirləşdirilməsi bütün dövrlərdə mütəfəkkirləri, maarifçiləri, müəllimləri narahat edən pedaqoji problem olub. Ona görə narahat edib ki, bütün dövrlərdə zamanın tələbindən asılı olaraq, dərsin müasirləşdirilməsinə ehtiyac olub. Müasirləşdiriblər, müasirləşdiriblər, müasirləşdiriblər... amma yenə də dərsin müasirləşdirilməsinə ehtiyac olub, bu gün də ehtiyacı var, güman edirik ki, həmişə də ehtiyac olacaqdır.

Yarandığı ilk gündən bu günə qədər müasirləşə - müasirləşə böyük bir şərəfli və zəfərli tarixi yol keçən, bu yolda dünyanın gedişatını dəyişən, mənəviyyatını, əxlaqını formalaşdıran, inkişafını sürətləndirən nəhəng - nəhəng sərkərdələr, mütəfəkkirlər, alimlər, maarifçilər, siyasətçilər, dövlət xadimləri... və s. yetişdirən DƏRS həmişə zaman qarşısında aciz qalıb, yeniləşməyə, müasirləşməyə çalışıb ki, zamanın buxovundan, tənəsindən yaxasını qurtarsın, amma qurtara bilməyib. Nə qədər qəribə səslənsə də, reallıq budur ki, dünyanı dərk etməyi dərsdə öyrənən adamlar sonralar onu tənqid edib, noqsanlarının olduğunu bildiriblər. Amma özləri də dərsin elə bir modelini "kəşf edə" bilməyiblər ki, dəyişməz olaraq, uzun bir dövr qəbuledilən sayılsın.

Uzun bir tarixi yol keçmiş, yaşı bəlkə də bəşər tarixinin yaşı ilə eyni olan dərs haqqında, son illərdə professor Əbdül Əlizadənin təhsil konsepsiyasına və onunla birlikdə apardığımız tədqiqatlara istinad edərək, bəzi məqamları araşdırmaq istəyirik. Məqsədimiz onu tənqid etmək olmasa da, XX əsrdə dərsin inkişafı yollarına işıq salmaq, bizim fikrimizcə, mövcüd olan noqsanları (onlar subyektiv xarakter də daşıya bilər) açıqlamaq, dərsi bu günün prizmasından müasirləşdirməyin yollarını axtarmaqdır.

### XX əsrdə dərsin fəlsəfəsində üç yanaşma

XX əsrdə dərsə onun fəlsəfəsi baxımından üç yanaşma olub. Onları belə adlandırıblar: 1.Ənənəvi təlim; 2.Fəal təlim; 3.İnteraktiv təlim. Bu yanaşmalar bir-birlərindən təlimin qarşısına qoyulan məqsədlərə görə fərqlənmişlər.

### Ənənəvi təlimdə dərsin konturları

Məlum olduğu kimi, ənənəvi məktəbdə dərs məlumatvericilik episentri üzərində köklənmişdi. Bu ənənəvi dərsin qarşısında duran məqsədlə bağlı idi.

Sözün düzü, keçmişə boylananda və ənənəvi dərsi təhlil edəndə belə qərara gəlmək olur ki, dərsin məlumatvericilik episentri üzərində köklənməsini təcrübədə reallaşdırmaq müəllimdən xüsusi yaradıcılıq səyi tələb etmirdi.

➩Ardı səh.5

# 2266 tələbənin müraciəti müsbət cavablandırılıb

Tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə və təhsilalma formasının dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələrində, magistratura səviyyəsində təhsilalanların köçürülməsi üzrə nəticələr məlum olub.

*Transfer.edu.az* portalı vasitəsilə köçürülmək üçün ümumilikdə 3083 nəfər müraciət edib. Onlardan 2266 nəfərin müraciəti müsbət cavablandırılıb.

Ali təhsil müəssisələrindən köçürülmək üçün müraciət edən 2668 nəfərdən 1915 nəfərin müraciəti müsbət cavablandırılıb. Köçürülməsinə icazə verilən tələbələrdən 1858-ni bakalavriat, 17-ni magistratura səviyyələri üzrə, 40-nı isə xarici ali təhsil müəssisələrindən köçürülənlər təşkil edir.

Orta ixtisas təhsili müəssisələrindən köçürülmək üçün müraciət edən 415 nəfərdən 351 nəfərin müraciəti müsbət cavablandırılıb.

Qeyd edək ki, 2016-cı ildən fəaliyyətə başlayan portal vasitəsilə indiyədək ümumilikdə 8 mindən çox tələbənin köçürülməsi həyata keçirilib.



# Süni intellekt məktəblərin tədris planına daxil ediləcək

2024-cü ilin sonuna qədər məktəblərin ən azı 50 faizi layihəyə qoşulacaq

Səh.6





# Bəşəriyyətə və insanlığa qarşı cinayət

## Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib

⇦ Əvvəli səh.1

Birinci xanım Mehriban Əliyeva, dövlət və hökumət nümayəndələri, ölkəmizdəki dini konfessiyaların rəhbərləri abidənin önünə gül dəstələri qoydular.

Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı və qanlı səhifəsidir. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilib. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və qismən məhv edilməsi niyyəti ilə törədilməsi Xocalı faciəsinin beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu təsdiq edir.

Dünya bu acı həqiqəti bilməli və insanlığa qarşı törədilən bu fakt öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən, Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüz illiklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib. Çünki XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən bu kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilən cinayət idi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi əsl siyasi və hüquqi qiymətini aldı. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı Soyqırımı Günü kimi qəbul etdi. O dövrdən başlayaraq dünya azərbaycanlıları soyqırımının bütün dünyada tanıdılması istiqamətində fəallığa çağırıldı, bununla əlaqədar onlara müraciət edildi. Həmin vaxtdan Azərbaycan diasporu Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəal iş görməyə başlayıb. Xocalı soyqırımı qurbanlarının xatirəsi bu gün dünyanın yüzlərlə şəhərlərində anılır. Qanlı qırğınla bağlı faktlar növbəti ildönümündə də beynəlxalq təşkilatlar qarşısında bir daha nümayiş etdirilir.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri var. Fond Xocalı soyqırımı ilə əlaqədar xarici ölkələrdə layihələr həyata keçirir. Məqsəd bu soyqırımının dünya ictimaiyyətinə çatdırılması və erməni vəhşiliklərini əks etdirən materialların beynəlxalq təşkilatlar qarşısında nümayiş etdirilməsidir. Fondun həyata keçirdiyi “Qarabağ həqiqətləri” silsiləsi və işğal olunan ərazilərdə mədəni-tarixi abidələrin dağıdılması ilə bağlı ingilis dilində nəşr olunan kitab və bukletlər xaricdə yayılır. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanan “Xocalıya ədalət!” kampaniyası çərçivəsində dünya ölkələrində mitinqlər, yürüşlər və tədbirlər təşkil olunur.

Yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü artıq ifşa olunub və dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayıb. Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərar və qətnamələrində əks olunur. Dünyanın 56 ölkəsinin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı Xocalı faciəsini insanlığa qarşı cinayət kimi qiymətləndirib və onu soyqırımı kimi tanıyıb. Təşkilat üzv dövlətləri həmin faciəyə müvafiq siyasi-hüquqi qiymət verməyə çağırıb. İndiyə qədər 10-dan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıyıb.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirdi, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etdi. Hər il soyqırımı qurbanlarının əziz xatirəsinin ümumxalq səviyyəsində yad edilməsi onu göstərir ki, Xocalıda ermənilərin həyata keçirdiyi dəhşətli qətliam xalqımızın yaddaşından heç vaxt silinməyəcək, gələcək nəsillər Xocalı soyqırımının dəhşətlərini heç zaman unutmayacaq, bu soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq.

Ermənilər Xocalı soyqırımını törətməklə xalqımızın mübarizə əzmini qırmaq istədilər. Amma faciələrimiz bizi daha da möhkəmləndirdi. Biz bir xalq olaraq daha güclü və əzmli olduq. Biz güclü dövlət yaratdıq. O dövlət ki, bu gün dünyada söz və nüfuz sahibidir. Azərbaycan dostluq və tərəfdaşlığın nümunəsini dünyada yayan və təbliğ edən ölkələr sırasındadır. İqtisadi və siyasi gücünü durmadan artıran, regionda sülhün və təhlükəsizliyin təmin olunmasına töhfələr verən ölkəmiz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, ərazi bütövlüyü çərçivəsində həllinə də nail olacaq. Bunu şərtləndirən ən böyük amillər xalqımızın vətənpərvərliyi, döyüşkən ruhu, torpağa məhəbbəti, həmçinin dövlətimizin başçısının uğurlu siyasəti və qətiyyətli mövqeyidir.

“Ermənilərin fikri özlərinə getməsin. Onlar bəlkə də öz tarixi vətənini unuda bilərlər. Azərbaycan xalqı heç vaxt öz tarixi vətənini unuda bilməz. Bu gün qaçqın şəhərciklərində, Bakıda, başqa yerlərdə Dağlıq Qarabağdan, işğal edilmiş bölgələrdən olan ailələrdə doğulan uşaqlar bir amalla, bir arzu ilə yaşayırlar ki, doğma torpaqlarına qayıtsınlar”, - deyən Prezident İlham Əliyevin bu fikrinin təməlində çox güclü ideya dayanır: Biz öz tarixi torpaqlarımıza qayıdacağıq! Bu, bütün əzmini, dəyanətini canilərin məsuliyyətə cəlb olunmasına, belə kütləvi vəhşilik və soyqırımlarının bir daha təkrarlanmamasına yönəldən Azərbaycan dövlətinin zəfər yürüşü olacaq.

***

Gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam etdi. On minlərlə insan soyqırımı abidəsini ziyarət etdi. Abidənin önünə tər çiçəklər qoyuldu, şəhidlərin ruhuna dualar oxundu.

**AZƏRTAC**

# Yaddaş hekayəsi...

## Soyqırımı dəhşətləri Xocalıdan olan müəllimlərin təqdimatında



Nargizə Cakbarova



Şəhla Əl-Hüseyn





Nakibulla Əzizi



Aygirin

**Oruc MUSTAFAYEV**

Azərbaycan xalqı öz tarixinin ən ağır faciələrindən olan Xocalı soyqırımının ildönümünü dərin ürək ağrısı ilə yad edir. Fevralın 24-də Təhsil Nazirliyində Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrə 28 il əvvəl baş vermiş və xalqımızın qan yaddaşına həmişəlik həkk olunmuş soyqırımı barədə ətraflı məlumatlar çatdırıldı. Əslən Xocalıdan olan, Corc Vaşinqton Universitetinin magistri, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) müəllimi Nərmin İbrahimova və ABŞ-ın Sirakuz Universitetinin fəlsəfə doktoru, ADA Universitetinin müəllimi Gülməmməd Məmmədovun təqdim etdikləri yaddaş hekayəsi mərasimdə iştirak edənlərin hafizəsində uzun müddət yer tapacaq. 28 il öncə yaşanmış faciə barədə məlumatlar, nümayiş olunan sənədlər ölkəmizdə təhsil alan əcnəbi tələbələrin marağına səbəb oldu. “Biz öz həyat hekayələrimizdən danışacağıq. Xocalı Azərbaycanın əzəli torpağıdır. Uşaqlıq dövrümüz orada keçib, müharibənin dəhşətlərini, erməni vəhşiliyini orada görmüşük. İnsanlar yurd-yuvalarından didərgin olmuşdu, yalnız xilas olmaq barədə düşünürdü”, - deyən müəllimlərimizin Xocalıda uşaqlıq illərində yaşadıqları dəhşətlərə dair həyat hekayələri əcnəbi tələbələri sarsıtdı. Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələr öz təəssüratlarını “Azərbaycan müəllimi” qəzetinə belə bölüşdülər.

## Əcnəbi tələbələr soyqırımı barədə

### “Daha çox günahsız insanın xüsusi amansızlıqla öldürülməsi çox kədərlidir”

*Nargizə Cakbarova (Özbəkistan), Azərbayan Dillər Universitetinin “Beynəlxalq münasibətlər” ixtisasının IV kurs tələbəsi:*

- Təhsil aldığım universitetdə bizə Xocalı soyqırımı barədə bir çox məlumatlar verilmişdir. 1992-ci il fevralın 25-də baş vermiş və 613 nəfərin qətlə yetirildiyi bu faciənin qurbanlarını dərin hüznlə anır və ümid edirik ki, Dağlıq Qarabağ münaqişəsi tezliklə öz həllini tapacaq. Xocalı hadisələrində daha çox günahsız insanın xüsusi amansızlıqla öldürülməsi çox kədərlidir. Bu cür tədbirlər xüsusən tələbələr üçün çox əhəmiyyətlidir. Məsələn, dünyagörüşümüzü daha çox inkişaf etdirir və soyqırımı haqqında daha çox məlumatlar əldə edirik.

### “Dinc sakinlərə qarşı törədilmiş hadisələrə görə çox üzgünəm”

*Şəhla Əl-Hüseyn (İraq), Azərbaycan Memarlıq və İnşaat Universitetinin II kurs tələbəsi:*

- Mən iraqlıyam. Biz bu gün burada Xocalı soyqırımına həsr olunmuş tədbirdə iştirak edirik. Bu gün burada ermənilərin Xocalıda dinc azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, yüzlərlə günahsız insanı qətlə yetirməsinə dair məlumatlarla tanış olduq. Bu, çox ağır hadisədir, dinc sakinlərə qarşı törədilmiş hadisələrə görə çox üzgünəm. Vətənimdə eyni hissləri keçirmişəm. Çox istərdim ki, müharibələr bitsin, insanlar dinc, normal həyat yaşasınlar. Düşünürəm ki, bugünkü tədbir Azərbaycanda təhsil alan əcnəbi tələbələrə ölkənin tarixi haqqında ətraflı məlumat vermək baxımından çox vacibdir.

### “Günahsız insanlar erməni vəhşiliyinin qurbanı olublar”

*Nakibulla Əzizi (Əfqanıstan), Azərbaycan Memarlıq və İnşaat Universitetinin “İnşaat mühəndisliyi” ixtisasının I kurs tələbəsi:*

- Burada magistratura təhsili alıram. Xocalı Azərbaycanın tarixinə ən ağır, qanlı faciə kimi düşüb. Faciədə günahsız insanlar erməni vəhşiliyinin qurbanı olublar. İnsanlar öz evlərindən, doğmalarından, yurd-yuvalarından didərgin düşüblər. Qanlı olayda 613 nəfərin həlak olmasına dair məlumatlarım var idi. Mən onu da deməliyəm ki, Əfqanıstan Azərbaycanın haqq işini daim müdafiə edib. Bugünkü anım mərasimində 2 universitet müəllimi Xocalı faciəsi ilə bağlı öz yaşantılarını çox gözəl ifadə etdilər. Onlar çox çalışıblar, xaricdə universitet bitiriblər, bu gün də öz vətənlərinə xidmət edirlər. Onlar biz gənclər üçün bir örnəkdir. Çünki biz öz vətənimiz üçün çalışmalı və xidmət etməliyik.

### “Burada eşitdiklərimin təsiri altındayam”

*Aygirin (Özbəkistan), ADA Universitetinin tələbəsi:*

- Mən Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə eşitmişdim. Ancaq bu gün ilk dəfə 28 il bundan əvvəl baş vermiş qanlı faciə barədə geniş məlumat aldım. Burada eşitdiklərimin təsiri altındayam. Bu hadisə məni çox sarsıtdı. Xocalıda həyatlarını itirmiş insanlara görə çox üzülürəm. Xocalı faciəsinin şahidləri olan insanların yaşantıları ilə tanış deyildim. Burada Xocalı hadisələrini yaşamış müəllimlərin çıxışları məndə dərin təəssürat oyatdı. Məni heyrətləndirən odur ki, bu cür insanlar yaşadıqları faciələrə, çətinliklərə baxmayaraq həyatda bu cür uğurlar qazana biliblər, onlar sınmayıblar, həyatlarını davam etdiriblər. Bu cür ağır həyat sınaqlarından keçməmiş insanlar belə, təhsil sahəsində bu uğurlara nail ola bilməyiblər. Mən onların fədakarlığına valeh oldum.

Qeyd edək ki, Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirin məqsədi əcnəbi tələbələrin Xocalı faciəsi ilə bağlı məlumatlandırılmasıdır. Tədbirdə 100-dən çox əcnəbi tələbə iştirak edib.

## Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

Fevralın 26-da Təhsil Nazirliyinin və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin kollektivi Xocalı soyqırımının 28-ci ildönümü münasibətilə “Ana fəryadı” abidəsini ziyarət edərək önünə qərənfillər düzüb. Faciə qurbanlarının xatirəsi dərin ehtiramla yad olunub.

## İlk dərslər Xocalı soyqırımına həsr edilib

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr edilib.

Təhsil Nazirliyinin “Xocalı soyqırımının 28-ci ildönümünün keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”na əsasən tədris olunan dərslərdə Xocalı qurbanlarının xatirəsi yad edilib, şagirdlərə XX əsrin ən dəhşətli hadisələrindən olan Xocalı soyqırımı haqqında ətraflı məlumat verilib, onlara Vətənə, doğma torpağa məhəbbət hissi aşılanıb.

Tədbirlər Planına uyğun olaraq, təhsil müəssisələrində Xocalı soyqırımına həsr olunmuş xatirə gecələri, foto və rəsm sərgiləri, şahidlərlə görüşlər keçirilib, sənədli və bədii filmlərin nümayişi təşkil edilib.

Qeyd edək ki, təhsil müəssisələrinin müəllim və şagird kollektivinin Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış “Ana fəryadı” abidəsinə ziyarəti də təşkil olunub.

# Birinci sinfə şagird qəbulunun elektron sistem vasitəsilə aparılması barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli Fərmanının tələblərinin həyata keçirilməsini təmin etmək məqsədi ilə "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 6.4-cü maddəsini və "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 7.4-cü və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2020-2021-ci dərs ilində ölkənin bütün ümumi təhsil müəssisələrinin I siniflərinə şagird qəbulu ərizələrin onlayn qeydiyyatı aparılmaqla elektron sistem vasitəsilə həyata keçirilsin.

**2.** I sinfə elektron ərizə qəbulu prosesinin əlaqələndirilməsi və səmərəli təşkil edilməsi məqsədilə yaradılmış İşçi Qrupunun tərkibi təsdiq edilsin (əlavə olunur).

**3.** 2020/2021-ci dərs ilində ölkənin rayon və şəhərləri üzrə bütün dövlət ümumi təhsil müəssisələrinin tədris digər dillərdə aparılan birinci siniflərinə qəbul zamanı uşaqların həmin dil üzrə şifahi nitq bacarıqlarının qiymətləndirilməsi üçün təhsili idarəetmə orqanları tərəfindən peşəkar və səriştəli müəllimlərdən ibarət müsahibə komissiyaları təşkil olunsun.

**4.** Dövlət ümumi təhsil müəssisələrinin tədris digər dillərdə aparılan birinci siniflərinə uşaqların qəbulu müsahibə komissiyasının müsbət yazılı rəyi əsasında aparılsın.

**5.** Dövlət ümumi təhsil müəssisələrinin I siniflərinə qəbul üçün valideynlərin (digər qanuni nümayəndələrin) onlayn qeydiyyatı 2020-ci il mart ayının 10-dan, məktəb seçimi ilə əlaqədar elektron sorğu yerləşdirmə prosesi mart ayının 13-dən başlansın.

**6.** Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (V.Xanlarov) şagirdlərin I sinfə qəbulu elektron xidmətinin fəaliyyətini təmin etsin.

**7.** Maliyyə şöbəsi (R.Orucov) şagirdlərin I sinfə elektron sistem vasitəsilə qəbulunun həyata keçirilməsi ilə bağlı zəruri maliyyə məsələlərini həll etsin.

**8.** İnformasiya şöbəsi (E.Məmmədov) I sinfə elektron ərizə qəbulunun forma və proseduru barədə ictimaiyyətin məlumatlandırılmasını, bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, Nazirliyin internet saytında yerləşdirilməsini və aidiyyəti struktur bölmələrə çatdırılmasını təmin etsin.

**9.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
*Azərbaycan Respublikasının Təhsil naziri*

*20 fevral 2020-ci il*

# "Sabahın alimləri" IX Respublika Müsabiqəsinin yekunları haqqında

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Azərbaycan Respublikası Təhsil nazirinin 2019-cu il 6 avqust tarixli F-482 nömrəli əmrinə əsasən, 2020-ci il 11-13 fevral tarixlərində Bakı şəhərində "Sabahın alimləri" IX Respublika Müsabiqəsi keçirilmişdir. Müsabiqə İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində təşkil olunmuşdur. Müsabiqənin təşkilatçıları Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Gənclər və İdman Nazirliyi, Heydər Əliyev Mərkəzi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi olmuş, BP Şirkəti tərəfindən maddi, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti və Sumqayıt Dövlət Universiteti tərəfindən müsabiqəyə elmi dəstək verilmişdir. Bu tədbirdə Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Bakı, Sumqayıt, Gəncə, Ağdaş, Şəki, Mingəçevir, Şirvan, Lənkəran, Cəlilabad, Balakən, İsmayıllı, Qax, Xaçmaz və Ucarda yerləşən ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri iştirak etmişlər.

Müsabiqədə iştirak etmək istəyən şagirdlərin qeydiyyatı online həyata keçirilmişdir. Elektron qeydiyyatdan keçirilmiş 258 layihədən müsabiqədə 187 layihə ilə 327 şagird iştirak etmişdir. Bu layihələrdən 47-i fərdi, 140-ı isə kollektiv işlənilmiş layihələr olmuşdur.

Layihələrin qiymətləndirilməsini həyata keçirmək məqsədi ilə alimlərdən ibarət Münsiflər heyəti yaradılmışdır. Qiymətləndirmə 8 kateqoriya (riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri) üzrə həyata keçirilmişdir. Münsiflər heyətinin qərarına görə müxtəlif kateqoriyalar üzrə I, II və III yerlərə 47 layihə üzrə 86 şagird, o cümlədən I yerə 6 layihə üzrə 11 şagird, II yerə 16 layihə üzrə 29 şagird, III yerə 25 layihə üzrə 46 şagird layiq görülmüşdür. Qaliblər sırasından İSEF-də iştirak etmək üçün 4 layihə (6 şagird) seçilmişdir.

Qaliblərə müsabiqənin təşkilatçıları adından diplom, medal və hədiyyələr təqdim edilmiş, yer tutmayan finalçılara isə müsabiqənin sertifikatları verilmişdir.

Müsabiqə çərçivəsində şagirdlərin elmi rəhbərləri üçün Təlim Akademiyası, məktəblilər, müəllimlər və media nümayəndələri üçün "açıq qapı" saatları təşkil edilmişdir.

Qeyd olunanları nəzərə alaraq və "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2020-ci il 11-13 fevral tarixlərində "Sabahın alimləri" IX Respublika Müsabiqəsinin Münsiflər heyəti tərəfindən seçilən qaliblərinin siyahısı təsdiq edilsin (əlavə 1).

**2.** Təşkilatçıların 4 fevral 2020-ci il tarixli Q-01 nömrəli birgə qərarına uyğun olaraq qaliblərə (əlavə 1), qalib şagirdlərin rəhbərlərinə (əlavə 2) nəzərdə tutulmuş pul mükafatları, Münsiflər heyətinin üzvlərinə (əlavə 3), Elmi Ekspertiza Komitəsinin üzvlərinə (əlavə 4) isə qonorar verilsin.

**3.** 2020-ci ilin may ayında ABŞ-ın Anaheym şəhərində keçiriləcək İSEF-də iştirak etmək üçün seçilmiş şagirdlərin siyahısı təsdiq edilsin (əlavə 5).

**4.** Nəzərə alınsın ki, ABŞ-a gedəcək şagirdlərin yol xərcləri Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müsabiqə üçün nəzərdə tutulmuş xərclər və BP şirkətinin dəstəyi hesabına ödəniləcəkdir.

**5.** Aparat rəhbərinin müavini, "Sabahın alimləri" IX Respublika müsabiqəsinin direktoru Y.Piriyevə tapşırılsın:

5.1. İSEF-də iştirak edəcək şagirdlərin layihələrinin ingilis dilində hazırlanmasına nəzarət etsin;

5.2. Şagirdləri ABŞ-da müşayiət edəcək nümayəndə heyətinin tərkibi barədə təkliflərini Nazirliyin rəhbərliyinə 10 gün ərzində təqdim etsin;

5.3. İSEF-in Təşkilat Komitəsinə müvafiq məlumatların göndərilməsini təmin etsin.

**6.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin çoxaldılıb aidiyyəti müəssisələrə göndərilməsini, Nazirliyin internet səhifəsində yerləşdirilməsini və "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını təmin etsin.

**7.** Əmrin icrasına nəzarət nazir müavini M.Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
*Azərbaycan Respublikasının Təhsil naziri*

*24 fevral 2020-ci il*

# Təhsil naziri Hacıqabul şəhərindəki məktəb-liseydə olub

Fevralın 21-də Təhsil naziri Ceyhun Bayramov Hacıqabul şəhər 10 nömrəli Texniki-Təbiət Fənlər Təmayüllü məktəb-liseydə olub. Nazir məktəbin müəllim və şagird kollektivi ilə görüşüb, eyni zamanda təhsil müəssisəsinin ümumi şəraiti, dərs otaqları, kitabxanası, idman və akt zalı ilə tanış olub, şagirdlərin dərsə davamiyyəti ilə maraqlanıb.

Daha sonra nazir məktəb-liseyin 5-ci sinfində tarix və alman dili dərslərinin tədrisi prosesini izləyib. Nazir şagirdlərə elektron resurslardan daha fəal istifadəni tövsiyə edib, həmçinin təhsil ocağının rəhbərliyinə məktəb kitabxanasının zənginləşdirilməsinə dair tapşırıq verib.



# Təhsil naziri Kürdəmirdə vətəndaşları qəbul edib

Fevralın 21-də Təhsil naziri Ceyhun Bayramov Kürdəmir şəhərindəki Yeni Azərbaycan Partiyası Kürdəmir rayon təşkilatının qərargahında Göyçay və Kürdəmir rayon sakinlərini qəbul edib.

Qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülərək xatirəsi ehtiramla yad edilib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2020-ci ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq həyata keçirilən qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, məktəb binalarının əsaslı təmir və tikintisi, təhsil haqqı, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

# Təhsil Nazirliyində görüş

Fevralın 27-də Təhsil naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında təhsilin müxtəlif sahələri üzrə əməkdaşlıqdan məmnunluq ifadə olunub və gələcək inkişaf perspektivləri müzakirə edilib.

# Nazir müavini Zərdabda vətəndaşları qəbul edib

Fevralın 25-də Təhsil nazirinin müavini Firudin Qurbanov Zərdab şəhərindəki Heydər Əliyev Mərkəzində Ucar və Zərdab rayon sakinlərini qəbul edib.

Qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülərək xatirəsi ehtiramla yad edilib.

Qəbulda sözügedən bölgələrdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir müavini vətəndaşların müraciət, şikayət və təkliflərini dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, həmçinin digər məsələlərlə bağlı müraciət ediblər.

# Bakı Mühəndislik Universitetində tələbələrə smart tələbə kartları təqdim olunub

Fevralın 21-də Bakı Mühəndislik Universitetində smart tələbə kartının təqdimat mərasimi keçirilib.




Tədbirdə Təhsil nazirinin müavini İdris İsayev, Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyev, Bakı Mühəndislik Universitetinin (BMU) rektoru Havar Məmmədov, "Mastercard"ın Türkiyə üzrə vitse-prezidenti və Azərbaycan üzrə ölkə müdiri Erdem Çakar, "Kapital Bank"ın Korporativ və KOS Satış İdarəsinin baş direktoru Fərid Hidayətzadə, tərəfdaş qurumların rəsmiləri, universitetin müəllim-tələbə heyəti və media nümayəndələri iştirak ediblər.

Təhsil nazirinin müavini İdris İsayev çıxışında qeyd edib ki, smart tələbə kartlarının hazırlanması ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası çərçivəsində həyata keçirilir. Nazir müavini bildirib ki, bununla bağlı ali təhsil müəssisələrində mövcud olan tələbə biletinin yeni vahid standartı müəyyən edilib və onun əsasında müasir ödəniş funksionallı tələbə kartları hazırlanaraq tələbələrə təqdim olunur.

Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyev bu layihənin müasir ödəniş mədəniyyətinə malik yeni nəslin yetişməsində, ölkədə rəqəmsal ödəniş ekosisteminin inkişafında mühüm dəstək olacağını qeyd edib.

BMU-nun rektoru Havar Məmmədov universitetdə İKT-nin bir çox istiqamətlərdə tətbiq olunduğunu qeyd edib. O bildirib ki, "Universitet Elektron Məlumat Sistemi" tətbiqi nəticəsində idarəetmədə şəffaflıq, dəqiqlik, sürətlilik və hesabatlılıq təmin olunub. Tədris prosesində müasir kompüter avadanlıqlarından, elektron resurslardan istifadə olunmaqdadır. Rektor görülən işlərin davamı olaraq, təqdim edilən smart tələbə kartlarının elektron universitet sistemini daha da gücləndirəcəyinə inandığını qeyd edib.

Tədbirdə çıxış edən "Mastercard"ın Azərbaycan üzrə ölkə müdiri Erdem Çakar Azərbaycan smart kartın tələbələrə verəcəyi üstünlüklərdən danışıb.

"Kapital Bank"ın Korporativ və KOS Satış İdarəsinin baş direktoru Fərid Hidayətzadə də öz növbəsində smart tələbə kartlarının funksionallığı və ödəniş imkanları haqqında məlumat verib.

Sonda smart tələbə kartı barədə təqdimat nümayiş etdirilib və universitetin ən yüksək göstəriciləri olan 20 tələbəsinə smart tələbə kartları təqdim olunub.

Təqdimatda bildirilib ki, smart tələbə kartı vasitəsilə tələbələr təqaüdlərini alacaq, ölkə daxilində və xaricdə həmin kartlarla ödənişlər həyata keçirə biləcəklər. Həmçinin, regionlarda yaşayan valideynlər övladlarına rahatlıqla maliyyə vəsaiti göndərə biləcəklər. Tələbələr smart kartı vasitəsi ilə universitetə, kitabxanaya və oxu zallarına giriş üçün də istifadə edə biləcəklər. Gələcəkdə smart tələbə kartının əhatə imkanlarının daha da genişləndirilməsi, ictimai nəqliyyatda, tələbələr üçün xüsusi endirim kampaniyalarında və digər xidmət sahələrində istifadə olunmasının nəzərdə tutulduğu vurğulanıb.

Qeyd edək ki, layihə Təhsil Nazirliyi, Mərkəzi Bank, "Mastercard" və "Kapital Bank"ın dəstəyi ilə həyata keçirilir.

# "GəncLİK" liderləri bir masa ətrafında

## *Firudin Qurbanov:* "Kreativ olmaq, daim yenilik axtarmaq, informasiyadan səmərəli istifadə etməklə təşəbbüskar olmaq müasir dövrün tələbləridir"





**Ruhiyyə DAŞSALAHLI**

Onlar 30 nəfərdir. Yaşca gənc olsalar da, iddiaları yaşlarını da, boylarını da aşır. Artıq hər biri bir liderdir. "GəncLİK" proqramında 4 pilləli seçim mərhələsinin nəticəsi olaraq müraciət edən mindən çox gənc arasından 30 lider seçilib. Seçilənlərə oktyabr-dekabr aylarında peşəkar xarici və yerli mentorların iştirakı ilə təlimlər keçirilib, onların regionlara səfərləri və dövlət qurumlarının rəhbər şəxsləri ilə görüşləri təşkil olunub. Bu dəfə isə Təhsil Nazirliyində nazir müavini Firudin Qurbanovla "dəyirmi masa" başında idilər.

### Sağlam bədəndə sağlam ruh olar

Sözə Firudin Qurbanov başladı. Gənclər 4 pilləli seçim mərhələsindən keçsələr də, nazir müavini yoxlayıcı suallar, iti nəzərlərlə gənclərin baxışlarında, yanaşmalarında liderliyin əlamətlərini axtardı. İdman, musiqi, yaxud incəsənətin hər hansı növü ilə maraqlananların olub-olmadığını müəyyənləşdirəndən sonra mətləbə keçdi. O, lider olmaq üçün tələb edilən bir çox keyfiyyətlər arasında sağlam həyat tərzinə diqqət çəkdi: "İnsan üçün ən böyük nemət sağlamlıqdır. Sağlamlıq da bir çox amillərdən asılıdır. Məsələn, bir çoxları sağlamlığın məhz səhiyyədən asılı olduğunu düşünsə də, əslində, elmi araşdırmalara görə bu amil insan sağlamlığında cəmi 7 faiz rol oynayır. Sağlamlıq ən çox həyat tərzindən asılıdır. Elmi hesablamalara görə, insanın həyat tərzi sağlamlığının 53 faizini təşkil edir. Eramızdan əvvəl yaşamış qədim yunan filosofu Aristotel də deyib ki, insanın sağlamlığı nə qədər hərəkət etməyindən asılıdır. Kim çox hərəkət edirsə, bir o qədər sağlam olur".

F.Qurbanov idmanla, musiqi ilə məşğul olanların sağlamlıqdan başqa, zərərli vərdişlərdən də uzaq olduğunu aparılan elmi araşdırmaların nəticələri ilə əsaslandırdı: "Tədqiqatlar göstərir ki, idmanla, incəsənətlə məşğul olan şagird və tələbələrin mənimsəmə faizi qənaətbəxş, akademik göstəriciləri digər şagirdlərlə müqayisədə təxminən 35 faiz yüksək olur. Çin filosofu və mütəfəkkiri Konfutsi hələ eramızdan əvvəl uğur əldə etmək üçün tələb edilən amillər arasında musiqini xüsusi qeyd edirdi. Oxuduğum məqalələrdən birində belə bir araşdırma vardı: Nobel mükafatı alanların hamısının musiqi ilə bağlılığı var. Digər bir maraqlı tədqiqat Rusiya Federasiyasında aparılıb. İslah müəssisələrində tərbiyə olunan yeniyetmələrin heç birinin musiqi məktəblərində təhsil almadığı ortaya çıxıb. Musiqinin insanın hərtərəfli inkişafına nə qədər təsiri olduğunu bu araşdırmalar ortaya qoyub. Ona görə çalışın ki, idman və musiqi həyatınızın bir parçasına çevrilsin".

Dövlət səviyyəsində idmanın inkişafına, insanların idmanla məşğul olmasına göstərilən diqqətdən danışan nazir müavini ölkəmizdə qurulan idman infrastrukturuna diqqət çəkdi. Məhz sağlam həyat tərzi keçirən gələcək formalaşdırmaq üçün Prezident İlham Əliyevin bu sahəyə xüsusi qayğı və diqqət göstərdiyini vurğuladı.

### Müəllim həm də tərbiyə edəndir

Çox sürətlə həyatımıza daxil olan müasir texnologiyanın səbəb olduğu problemlərə diqqət çəkən nazir müavini "Dünyada 4 milyard 400 milyon insan internet istifadəçisidir", - dedi. F.Qurbanovun fikrincə, gün ərzində böyük informasiya seli arasından lazım olanı seçmək günün əsas tələbidir: "Hesablamalara görə, dünyada hər insan orta hesabla gün ərzində 6.5 saat internetdə vaxt keçirir. Elə ölkə var ki, bu müddət 10 saata qədər uzanır. İnformasiya cəmiyyətinin formalaşdığı bir dövrdə bu prosesin qarşısını almaq mümkün deyil. Son araşdırmalardan birində göstərilir ki, hər 72 saatdan bir informasiyanın həcmi iki dəfə artır. Bu vəziyyətdən çıxış yolu bəllidir: insanlarda bu axının içərisində lazım olanı seçib, ondan yararlanmaq vərdişi formalaşdırılmalıdır. Buna ilk növbədə uşaqlarda nail olmaq lazımdır. Çünki bugünkü uşaqlar sabah xalqdır. Xalqımızın gələcəyi bu gün uşaqları necə formalaşdırdığımızdan asılıdır. Bu, böyük məsuliyyətdir. Ona görə də çalışırıq ki, müəllimlərin peşəkarlığı ilə yanaşı, onların mənəviyyatına, mədəni səviyyəsinə diqqət yetirək. Bunun üçün müəllimlərin işə qəbulunda çoxmərhələli imtahanlar keçiririk. Məlumdur ki, müəllim təkcə bilik verən deyil, həm də tərbiyə edəndir. Hər adam müəllim ola bilməz. Müəllimlik peşə deyil, böyük bir missiyadır".

F.Qurbanov hesab edir ki, xalqın düzgün formalaşdırılmasında əsas rol oynayan təhsil, xüsusən, müəllim öz missiyasını düzgün dərk etməlidir. Təhsildə yanaşma müasir dövrün tələblərinə, müasir çağırışlara uyğun olmalıdır: "Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyində etdiyi proqram xarakterli çıxışında bildirdi ki, IV sənaye inqilabı dövründə elmin, texnologiyanın çox sürətlə inkişafı nəzərə alınmalı, təhsil sistemi öz fəaliyyətini buna uyğun qurmalıdır. Günümüzün ən böyük çətinliklərindən biri gələcəkdə ehtiyac olacaq ixtisasları müəyyənləşdirməkdir. Məsələn, ABŞ-da hesab edirlər ki, hazırda mövcud olan peşə və ixtisasların 50 faizinə 15 il sonra ehtiyac qalmayacaq. Ancaq təhsildə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı davam edir. Bəzi ixtisaslar üzrə kadr hazırlığına 8-9 il sərf olunur. Bu müddət başa çatanda məlum olur ki, həmin sahə bağlanıb. Ona görə də, təhsil sistemi öyrətməməli, öyrənməyin yolunu aşılamalıdır. Müəllim daha çox mentor, advayzer funksiyasını yerinə yetirməli, yolgöstərən olmalıdır".

### Öz üzərində işlə, yanlışından nəticə çıxart

Ancaq gənclərin də üzərinə böyük iş düşür. F.Qurbanovun sözlərinə görə, onlar məqsədlərini aydın görməli, bu məqsədə nail olmaq üçün planlı, məqsədyönlü hərəkət etməli, özünü yetişdirməyi bacarmalıdırlar: "Bu gün hər bir gəncdən öz üzərində işləmək tələb olunur. Liderliyin əsas amillərindən biri məhz budur. Kim ömürboyu oxumağı bacaracaqsa, öz üzərində işləyəcəksə, o, həyatda uğur qazana, ən azı iş yeri tapa biləcək. Bundan sonra əmək bazarında çox güclü rəqabət olacaq. İnsan əməyinə ehtiyac getdikcə azalacaq. Çünki süni intellekt artıq elan olunub. Avropa ölkələrində bütün üzv ölkələrə süni intellektlə bağlı milli proqramlarını hazırlamaq tövsiyə olunub. Elə bir dövr gələcək ki, şirkətlər robotların görə bildiyi iş üçün insanlara əlavə pul ödəməkdən imtina edəcəklər. Bu da o deməkdir ki, gələcəkdə insanları çox böyük çətinliklər gözləyir. Karyera inkişafını təmin etmək, lider ola bilmək üçün, ilk növbədə məqsədini, həmin məqsədə necə çatmaq üçün proqram müəyyənləşdirməlisiniz. Odur ki, planlaşdırmalı, qeydlər aparmalısınız".

F.Qurbanovun fikrincə, lider olmaq üçün düzgün qərar qəbul etməyi bacarmaq lazımdır: "Hesablamalara görə, dünyada liderlər əhalinin 20 faizini təşkil edir. Həmin 20 faizi fərqləndirən xüsusiyyətlərdən biri də məhz düzgün qərar qəbuletmə bacarığıdır. Təcrübə göstərir ki, verilən qərarların bir çoxu düzgün olmur. Ancaq həmin yanlışdan düzgün nəticə çıxaranlar da olur. Ona görə də insan öz səhvlərini görməyə çalışmalıdır. Bu bacarığı olanlar həyatda uğur qazana bilirlər".

### "Lider olmaq başqasını tənqid etməkdən yox, başqasının uğurunun səbəbini öyrənməkdən keçir"

F.Qurbanov Azərbaycan Prezidenti İlham Əliyevin təhsilə xüsusi önəm verdiyini vurğulayıb. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin əhəmiyyətindən danışan Təhsil nazirinin müavini ölkəmizdə gənclərə, onların təhsilinə böyük diqqət göstərildiyini deyib. "Ölkə rəhbərliyi tərəfindən irəli sürülən "Yüksəliş" müsabiqəsi məhz bu prosesin tərkib hissəsidir. Bu müsabiqənin nəticəsində ehtiyat kadrlar bankı formalaşacaq. Burada çox keyfiyyətlər tələb olunacaq. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bilik, bacarıq, başqa müvafiq vərdişlər vacib olsa da, kadrlardan, seçildiyi sahədən asılı olmayaraq, mədəniyyət səviyyəsi, mənəviyyatı, xarakteri, kommunikasiya və komanda mühitində işləmə bacarıqları da tələb ediləcək. Çünki artıq təsdiq edilib ki, bu keyfiyyətləri olmayan hər hansı mütəxəssis işində uğur qazana bilməz.

F.Qurbanov fikirlərini ümumiləşdirərək lider gənclərə tövsiyələrini verdi: "Həyatın mənasını müəyyənləşdirin, yüksək dəyərlərə inanın. Vətəni sevin. Ailənizi sevin. Yaxşılıq edin. Liderliyin əsas amillərindən biri də ətrafındakı insanlara kömək etmək, qayğı göstərməkdir. Unutmayın ki, lider olmaq başqasını tənqid etməkdən yox, başqasının uğurunun səbəbini öyrənməkdən keçir. Kreativ olmaq, daim yenilik axtarmaq, informasiyadan səmərəli istifadə etməklə təşəbbüskar olmaq müasir dövrun tələbləridir. Onda uğur qazanacaqsınız".

Firudin Qurbanov proqram iştirakçılarını maraqlandıran bütün sualları cavablandırdı. Gənc liderlər nazir müavini ilə əldə etdikləri görüş imkanından maksimum yararlanaraq, sadəcə təhsil yox, yer, hətta göy hadisələrindən söhbət saldılar. Ali təhsil müəssisələrinə müəllimlərin işə qəbulunun mərkəzləşdirilmiş qaydada keçirilməsi, auditoriyaya girən müəllimi tələbənin seçməsi, şəxsi inkişafı üçün böyük vəsait qoyub, çoxsaylı təlimlərdən keçən gənclərin ali məktəblərdə işləmək imkanları ilə maraqlandılar. Qızların nəinki idarəetməyə, bəzi bölgələrdə hətta təhsilə cəlb edilməsi üçün Təhsil Nazirliyinin gördüyü işlərdən, inklüziv təhsilin təbliğində həyata keçirilməsi zəruri olan tədbirlərdən danışdılar.

Görüşdən də, suallarına aldıqları cavablardan da razı qalan gənclər Təhsil Nazirliyindən hər zaman faydalana biləcəkləri qeydlərlə ayrıldılar.

## "Həyata ümidlərlə baxıramsa..."



Həmin gənclərdən biri Ülkər Süleymanova Şəki rayonunun Aşağı Güngüt kəndindəndir. 2013-2017-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialında "Riyaziyyat və informatika müəllimliyi" ixtisası üzrə təhsil alıb. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetində "Kompüter elmləri" ixtisası üzrə magistr təhsili alır: "2019-cu ildə Gənclər Fondu və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN Xidmət) tərəfindən fəaliyyətə başlayan "GəncLİK" proqramı barədə elanlardan məlumat aldım. İştiraka qərar verdim və müraciət edənlərdən biri də mən oldum. 3 ay təlimlərdən keçdik. Bu müddət ərzində tanınmış şəxslərlə görüşlər təşkil edildi. Belə maraqlı görüşlərdən biri də Təhsil nazirinin müavini Firudin Qurbanovla oldu".

30 nəfərin arasında olmasının səbəbi özü üçün də maraqlı olduğunu desə də, ona üstünlük verilməsini izah edəcək arqumenti də var: "Məncə, güclü iradəmə görə bu 30 nəfərin içərisindəyəm. Firudin Qurbanovla görüşdən heç vaxt unutmayacağım maraqlı fikri qeyd etdim. Nazir müavini dedi ki, bilik və bacarıqlar önəmli olsa da, müasir işəgötürənlər kadrları qiymətləndirərkən insani keyfiyyətlərə üstünlük verirlər. Düşünürəm ki, tamamilə doğru yanaşmadır. İnsan olaraq yüksək məziyyətlərə sahib olan biri öz üzərində çalışıb peşəkar da ola bilər. Doğrudur, hər insan da bilik almaq qabiliyyətinə malik deyil. Genetik faktorlardan tutmuş, bir çox amillər bəzən buna imkan vermir. Mən bu barədə bir az şanslıyam, deyəsən".

Özünü şanslı saysa da, taleyini şansa buraxanlardan deyil. Ülkər deyir ki, əgər şansa qalsaydı, nəinki 30 nəfərin içərisində, heç proqrama qatılanlardan da olmazdı: "ASAN Xidmət" könüllüsü olmuşam. Liderlik potensialı gördükləri 3 nəfərin adını məsul şəxslərimiz qeyd etmişdi. Həmin 3 nəfərin biri deyildim. Bəlkə də həmin siyahıda adımın olmaması məni bu proqrama müraciət etməyə təhrik etdi. Özümü heç kimdən aşağı səviyyədə görmürəm. Odur ki, mən də müraciət etdim. İlk mərhələdən keçib müsahibəyə qatıldım. Özümü o qədər rahat hiss edirdim ki, müsahibədə heç həyəcanlanmadım. Bu qədər asan keçdiyim bir müsahibə olmamışdı. Firudin müəllimin qeyd etdiyi kimi, insan gərək özünə inana, güvənə. Mən də güvəndim. Nəticələr elan olunanda "Mən yenə qazandım", - dedim və budur, burdayam".

Cəmiyyətdə müşahidə etdiyi problemlərin həlli yollarını axtaran Ülkər məhdudiyyətli insanlarla bağlı Təhsil Nazirliyindən də, mətbuatdan da kömək gözləyir: "Məhdudiyyətli uşaqlar çoxdur və təəssüf ki, cəmiyyətdən öncə ailələri onlara görə utanır. Halbuki hər insanın müəyyən istiqamət üzrə istedadı var və sadəcə onları təşviq etmək lazımdır. Xoşbəxtəm ki, mənə bu şans verildi. Ancaq bunu əldə edə bilməyənlər çoxdur".

Ü.Süleymanovanın fikrincə, fərqliliklərə münasibət düşüncələrdə dəyişməlidir: "8 yaşımda bədbəxt hadisə yaşadım və o gündən bəri çətin bir dövrdən keçirəm. Halbuki xatırlayıram ki, 9 yaşımda məktəbə gedəndə sinif yoldaşlarım məni öpərək, qucaqlayaraq qarşıladılar. İstəyirəm hamı bilsin ki, hamımız bərabərik. Fərqliliklər insanları biri-birindən üstün, ya da aşağı etməməlidir. Fərqlərimiz, sadəcə insani keyfiyyətlərimiz, özümüzü necə formalaşdırmağımızla bağlı ortaya çıxa bilər".

Ülkər qarşısına məqsəd qoyan hər kəsi bu yolda heç nəyə baxmadan irəliləməyə çağırır: "Bu gün 30 nəfərin arasındayamsa, həyata ümidlərlə baxıramsa, bu, çox yüksək əhvali-ruhiyyəyə sahib biri olduğum, heç nəyi vecimə almadığım anlamına gəlmir. Mən də yıxılıram, ancaq sonra qalxmağı da bacarıram. Qarşımıza məqsəd qoymalı, heç nəyə baxmadan ona doğru getməliyik. Bir də onu unutmamalıyıq ki, bizim üçün maneə yalnız özümüzük. Öz düşüncələrimizdəki maneəni aşdıqdan sonra heç kim qarşımızda əngələ çevrilə bilməz".

## "Yaxşı müəllim güclü liderdir"



Bakı Dövlət Universitetinin "Riyaziyyat müəllimliyi" ixtisası üzrə məzunu Səadət Yolçuzadə "GəncLik" proqramına son gündə müraciət edib: "Burada olan modullar, təcrübə mənim üçün çox maraqlı gəldi və müraciət etməyə qərar verdim. Vəzifəli və lider şəxslərlə görüşmək imkanı xüsusilə diqqətimi çəkdi. "ASAN Xidmət" və başqa təşkilatların təşkil etdiyi layihələrdə də iştirak etmişəm. Bunu özüm üçün unikal şans hesab elədim və qatıldım".

S.Yolçuzadənin fikrincə, müəllimlik və liderlik biri-birini tamamlayır: "Sinfin, dərsin lideri olan müəllimdən də ədalətli olmaq, düzgün qərarlar vermək, şagirdlərini və tələbələrini düzgün yönləndirmək bacarığı tələb edilir. Müəllim vaxtı, bilik və bacarıqları idarə etməyi bacarmalıdır. Yaxşı müəllim güclü liderdir. Bir sözlə, liderlik elə müəllimlikdən irəli gələn xüsusiyyətlərdir".

Elə yaxşı müəllim olduğu üçün də bu 30 nəfərin arasına düşə bildiyi qənaətindədir: "Fəal müəllim olmuşam. Özümü təqdimat bacarığım bu 30 nəfərdən biri olmağımda əsas rol oynadı. Kitabların və başqa faydalı mənbələrin köməyilə özümün inkişaf etdirdiyim bacarıqlarımın lider kimi yetişməyimdə mühüm rol oynadığını düşünürəm".

Region məktəblisi olan S.Yolçuzadə Azərbaycanın hər yerindən olan qadınların təhsildə də, idarəetmədə də özünü təsdiq edə biləcəyindən əmindir: "Hesab edirəm ki, qadınların istədiyi uğura nail olmaları üçün imkan yaradılıb. İnsan ilk növbədə özü-özünü qiymətləndirməli, özünə inanmalıdır. İnam istər liderlikdə, idarəetmədə iştirakında, istərsə də, hər hansı başqa hədəflərinə çatmağında çox mühüm rol oynayır. İnsan sadəcə təhsilini yox, ayrı-ayrı bacarıqlarını da inkişaf etdirməlidir".

I məqalə

# Dərsin müasirliyinin psixopedaqoji sirləri





**Hikmət ƏLİZADƏ,**
*BDU-nun professoru,*
*Təhsil Şurasının sədri*

⇦ Əvvəli səh.1

Müəllimlərin əksəriyyəti bu tələbdən çıxış edərək şagirdlər üçün (diqqət edin, müəllimlər üçün deyil, məhz şagirdlər üçün) yazılmış dərsliyi onlara danışmaqla (oxu: nəql etməklə və ya izah etməklə) öz vəzifələrini yerinə yetmiş hesab edirdilər. Əslində müəllimin belə fəaliyyəti ənənəvi təlimin fənyönümlü xarakter daşımasından irəli gəlirdi.

***Haşiyə:*** *Fikrimizin daha aydın olması üçün gəlin ənənəvi dərsin gedişini yada salaq - Müəllim ev tapşırıqlarını yoxladıqdan və keçən dərsdə öyrənmək üçün evə verilən mövzunu soruşduqdan sonra yeni mövzunu elan edirdi: - "Uşaqlar, bu gün... mövzunu öyrənəcəyik". Sonra onu şərh etməyə başlayırdı. Şərhin sonunda müəllim sinfə "kim dərsi başa düşmədi? (və ya "kimə nə aydın olmadı") sualı ilə müraciət edirdi. Dərsin sonunda isə biliyi möhkəmlətmək üçün şagirdlərə bir neçə sual və ya tapşırıq verirdi.*

Lakin burada bir məqama diqqət etmək lazımdır: adi müəllimlər adətən ənənəvi dərsi yalnız biliyin verilməsi və tətbiq edilməsi mərhələləri üzərində qururdular. Onlar unudurdular ki, mənimsəmə prosesində anlama mərhələsi də var. Fikir verin, adi müəllimlərin dərsində idraki cəhətdən adətən 3-5 şagird fəal olurdu. Bunun səbəbi də adi müəllimlərin anlama mərhələsinə diqqət etməməsi idi. Biliyi anlaya bilməyən şagird onu necə tətbiq edə bilərdi? Fəal şagirdlər isə evdə dərsi öyrənərkən valideynləri tərəfindən və ya fərdi imkanları vasitəsi ilə biliyi anlayan şagirdlər idi.

Novator müəllimlər isə anlama mərhələsini həyata keçirmək üçün, obrazlı desək, dərsi "daha dadlı etmək üçün ona duz, istiot və ədviyyat qatırdılar", yəni dərsdə biliyin şagirdin anlaması üçün fəndaxili və fənlərarası əlaqə prinsiplərinin tələblərinə riayət edir, keçmiş mövzu ilə yeni mövzu arasında əlaqə yaradır, yeni biliyin praktik əhəmiyyəti haqqında məlumat verir, müxtəlif priyomlardan (kartoçka, sual-cavab, oyun və s.), hətta bəzən dialoqdan və s. istifadə edirdilər. Novator müəllimlərə haqq qazandırmaq olar.

Novator müəllimlərin bu innovasiyaları təbii ki, metodiki xarakter daşıyırdı, mövzunun şərhini məzmunlaşdırır və onların belə fəaliyyəti daha çox şagirdin biliyi anlamasına imkan verirdi. Etiraf etməliyik ki, novator müəllimlər bu cəhdləri ilə dərsin səmərəliliyini artıra bilirdilər, onu daha maraqlı edə bilirdilər, şagirdlərin biliyini daha dərindən qiymətləndirə bilirdilər, lakin onun fəlsəfəsini yeniləməyə bu müəllimlərin də gücləri çatmadı, çata da bilməzdi, etdikləri yeniliklər yalnız mənimsəmə məqsədinin daha optimal həyata keçməsinə şərait yaratdı. Axı, ənənəvi didaktik sistemdə dərs zamanı müəllimi ilk növbədə proqram materialının şagirdlərə öyrədilməsi, məlumatın şagirdlərə verilməsi maraqlandırırdı.

Bir sual da maraqlıdır. Ənənəvi dərsdə müəllimlər görəsən niyə avtoritar-inzibati üsullara daha çox üstünlük verirdilər? Bunun səbəbini müəyyən etmək o qədər də çətin deyil. Ənənəvi dərsdə şagirdlərin idrak fəaliyyəti, müəllimlər üçün, ilk növbədə, sadəcə olaraq, intizam məsələsi kimi qiymətləndirilirdi. Bu, təbii idi, dərs prosesində müəllimin istəyi sadəcə olaraq, şagirdlərin ona diqqətlə qulaq asması idi. Şagirdin yeni mövzunu anlaması üçün isə o ən azı, sakitcə müəllimə qulaq asmalı idi.

Şagirdlərin biliyi möhkəm mənimsəməsi ənənəvi dərsin məqsədi olduğu üçün, sözün düzü həmin məqsədin daha dərindən həyata keçməsini təmin edə biləcək, maraqlı bir prinsip də irəli sürülmüşdür: - Biliyin möhkəmləndirilməsi. Bu təkrarlama yolu ilə reallaşdırılırdı. Ənənəvi dərsdə təkrarlama o qədər təkmil yol kimi mənalandırılırdı ki, onu belə təqdim edirdilər: - Təkrar biliyin anasıdır. Bu düstur ənənəvi dərsin məntiqinə əsaslanaraq, onun onurğa sütununu təşkil edirdi. Lakin bu prinsip də ənənəvi dərsdə bütün şagirdlərin biliyi anlamasını təmin edə bilməmişdi.

## Fəal təlimin meydana gəlməsi: Blum taksonomiyasının I variantı

XX əsrin ortalarında artıq dünyanın diqqəti psixoloji tədqiqatların bənzərsiz nəticələrinə yönəlmişdi. Jan Piajenin, Lev Semyonoviç Vıqotskinin, Abraham Maslounun və başqa psixoloqların tədqiqatları nəticəsində intellektin inkişaf modeli formalaşmışdı. Bu modelin reallaşdırılması dərsin müasirliyini artıracaqdı, zaman da intellektin inkişafı müstəvisində dərsin müasirləşdirilməsini tələb edirdi. Bu, o dövr idi ki, dünyanın müxtəlif ölkələrində dərsin müasirləşdirilməsi istiqamətində axtarışlar aparılırdı. Həm pedaqoqların, həm metodistlərin, həm də qabaqcıl müəllimlərin bu istiqamətdə axtarışlar apardıqları bir dövrdə, B.Blumun təlim məqsədləri taksonomiyası işıq üzü gördü və məlum oldu ki, bu taksonomiyanın tətbiqi dərsin müasirliyini təmin edə bilər. Taksonomiyada təlim məqsədləri (ənənəvi dərsdə təlim məqsədləri biliyin verilməsi, anlama və tətbiq etmə idi) yeniləndi və onların iearxik quruluşu aşağıdakı kimi təqdim edildi:

Bilik, anlama, tətbiq, analiz, sintez, qiymətləndirmə.

Ənənəvi təlimin məqsədindən fərqli olaraq, bu taksonomiyada fikri əməliyyatlar xüsusi yer tutdu və iki fikri əməliyyata (analiz və sintez) xüsusi önəm verildi. Analiz və sintez əsas fikri əməliyyatlardır, müqayisə, ümumiləşdirmə və s. kimi proseslər məhz onlardan törəmədir.

Analiz və sintez proseslərinin köklü psixoloji effektləri fikirləşmə fenomeni ilə əlaqəlidir. Təlim fikirləşmə fenomeni üzərində qurulanda biliyin mənimsənilməsində hafizə müstəvisindən təfəkkür müstəvisinə keçid əmələ gəlir. Belə yanaşma monoloji təlimin dialoji təlimlə əvəzlənməsinə gətirib çıxardı. Nəticədə, B.Blumun taksonomiyasının tətbiqi dövrün tələbinə müvafiq olaraq dərsin simasını yeniləşdirdi, müəllimlər şagirdləri fəallaşdırmağın yollarına yiyələndikcə.., bu yolları təkmilləşdirdikcə.., dərsin uğurları sərhədləri aşmağa başladı. Bu, təsadüfi deyildi, dialoqun təşkili yollarının tətbiqi genişləndikcə, dərsdə müəllimlər vaxtı ilə Sokratın yaratdığı möcüzələrlə qarşılaşmağa başladılar. Bu möcüzələr o qədər rəngarəng idi ki,.. müəllimlər onları gördükcə, daha həvəslə dərs deyir, dərsin səmərəliliyini artırmağın yeni-yeni yollarını axtarıb tapırdılar. Şagirdlər dil açmışdılar, nitqləri səlisləşmişdi, müstəqil fikirlər səsləndirirdilər, yeni ideyalar irəli sürürdülər, yeni biliyi "kəşf" edirdilər.., bütün bunlar sinifdə şagirdlərin təfəkkürünün inkişaf etməsinin təcəssümü və nəticəsi idi.

Blumun taksonomiyasının və onun tətbiqinin uğurları təbii ki, sovet pedaqoqlarına da məlum idi. Lakin ideoloji normalar onlara Amerika psixoloqunun tədqiqatlarına əsaslanaraq, dərsə yeni məzmun gətirməyə mane olurdu. Amma bu yeniliyin edilməsi qaçılmaz idi. 70-ci illərdə sovet pedaqoqları çıxış yolu kimi, problemli təlim ideyasını ortaya atdılar, dərsin məlumatverici-inkişafetdirici məzmunda qurulmasının metodologiyasını işləyib hazırladılar. Bu dövrdə sovet pedaqoqları yeni təlim metodları - qismən axtarıcılıq, müstəqil iş, idraki oyunlar, evristik müsahibə, disput, reproduktiv və problem axtarış, problem-tapşırıq, problem situasiyanın yaradılması və s. metodlarını işləyib hazırladılar. Lakin bu metodların tətbiqi nəzəri baxımdan öz inkişafını tapsa da, praktik istiqamətdə dərsdə yalnız novator müəllimlər tərəfindən reallaşa bildi.

Problemli təlim öz-özlüyündə pedaqoji cəhətdən maraq kəsb edən ideya idi. Bunun nəticəsi idi ki, novator müəllimlər tədris etdikləri fənn üzrə dərsi müasirləşdirə bildilər. Problemli təlim müəllimdən dərsi monoloq üzərində deyil, dialoq əsasında təşkil etməyi tələb edirdi və şagirdin təlim fəallığı ön plana çəkilirdi. Məhz həmin illərdə ilk dəfə olaraq, müəllimlə yanaşı şagird də təlim prosesinin "subyekti" (ənənəvi təlimdə şagird təlim prosesinin "obyekti" kimi qiymətləndirilirdi) kimi mənalandırılmağa başlandı. Bu, o demək idi ki, yeni biliyin şagirddə ötürülməsində müəllim ilə şagirdin əməkdaşlığına üstünlüyün verilməsi bir zərurət kimi pedaqoji gündəmin reallığına çevrilmişdi.

Təlimin yeni metodları da - qismən axtarıcılıq, müstəqil iş, idraki oyunlar, evristik müsahibə, disput, reproduktiv və problem axtarış, problem-tapşırıq, problem situasiyanın yaradılması kimi metodlar da ənənəvi təlim metodlarının, məsələn, müəllimin şərhi metodunun qarşısında çox əzəmətli idi. Belə dərsdə məqsəd artıq hafizənin inkişafı üzərində deyil, təfəkkürün inkişafı və formalaşmasına istiqamətlənmişdi. Şagirdlərdə fikri əməliyyatların formalaşması dərsin əsas məqsədinə çevrilə bilərdi...

## Fəal/interaktiv təlimin yaranması: Blum taksonomiyasının II variantı

90-cı illərdə B.Blumun taksonomiyasının II variantı pedaqoji gündəmi zəbt etdi. Bu, o dövr idi ki, dərsdən sadəcə olaraq təfəkkürün inkişafını deyil (bu fikrə diqqət edin: 60-cı illərdə təfəkkürün inkişafı xəyal kimi görünürdü, 90-cı illərdə isə inkişaf etmiş ölkələrin məktəblərində bu problem öz həllini tapmışdı), zaman artıq şagirdlərdə yaradıcılıq keyfiyyətlərinin inkişafını tələb edirdi. B.Blumun təlim məqsədləri taksonomiyasının II variantı zamanın bu tələbinin reallaşması üçün geniş imkanlar açdı. Bu taksonomiyada təlim məqsədlərinin ierarxik quruluşu aşağıdakı kimi təqdim edildi:

Xatırlama, anlama, tətbiq etmə, analiz, qiymətləndirmə və yaratma.

Formaca əvvəlki taksonomiyadan çox da fərqlənməyən bu taksonomiyada məzmun baxımından yaradıcılıq problemləri önə çəkilmişdi. Bu, görünür 60-90-cı illər arasında V.V.Davıdovun (empirik və nəzəri təfəkkür), C.Gilfordun (divergent və konvergent təfəkkür), Ə.Bayramovun, D.Xalperinin (tənqidi təfəkkür) E.Bononun (vertikal və lateral) və başqa psixoloqların təfəkkür sahəsində apardıqları tədqiqatların nəticəsində yaradıcı təfəkkür tipinin bərqərar olması ilə bağlı idi və bu taksonomiya şagirdin yaradıcılıq keyfiyyətlərinin formalaşmasına istiqamətlənmişdi. Məsələnin belə qoyuluşu dərsin möcüzələrini daha da artırdı. Təlimin əvvəlki metodlarından köklü şəkildə fərqlənən yeni təlim metodları - interaktiv təlim metodları daha da təkmilləşdirildi. Bu metodlar çoxdur, onların bəzilərinə diqqət yetirmək istərdik: - Beyin həmləsi, BİBÖ, auksion, klaster, suallar, anlayışların çıxarılması, söz assosiasiyaları, müzakirə, diskussiya, debatlar, müzakirə xəritələri, qrupla iş, Sokrat üsulu, akvarium, rollu oyunlar, modelləşdirmə, səhnələşdirmə, təqdimat və esselər, problemin həlli, kublaşdırma, konkret hadisənin araşdırılması, Venn diaqramı, layihələrin hazırlanması, sorğu vərəqələri və müsahibələr, qərarlar ağacı, ideyalar xalısı, refleksiya, ziqzaq, karusel və s.

Bu metodların tətbiqi ilə sinifdə "möcüzələr" daha da artdı, şagirdlərin fəallığı çoxaldı, onlarda əqli bacarıqların formalaşması ilə yanaşı, sinifdə yaradıcı mühüt yarandı, şagirdlər bir-birinin ardınca yeni ideyalar irəli sürməyə başladılar, dərs qeyri-standartlığı ilə yeni-yeni möcüzələr yaratmağa qadir olan möhtəşəm bir qüvvəyə çevrildi. Vaxtı ilə müəllim sinfə girəndə tərpənməyə risk etməyən, müəllimin dediyi hər bir kəlməni qeydsiz-şərtsiz qəbul edən şagird sinifdə öz funksiyasını dəyişdi, "yerini axtaran şəxsə" çevrildi. Müəllim də öz funksiyasını dəyişdi, məlumat vermə funksiyası şagirdlərdə ideyalar yaratmaq funksiyası ilə əvəz olundu. Bu cür dərsi təşkil edə bilən müəllim şagirdləri müzakirəyə cəlb edərək, onların bu sehrli dünyanın sirlərini kəşf etməsinə və öz "əlavələrini" etməsini seyr edərək, böyük mütəfəkkir Sokrat kimi, sinfin bir tərəfində sakitcə durub, şagirdlərin yeni ideyalar irəli sürməsinə fəxrlə baxa bilir.

İnteraktiv təlimdə dərs yeni məzmun kəsb etdi. Bu təlimdə dialoqla yanaşı diskussiya önəm kəsb etməyə başladı. Artıq dərsdə təkcə təfəkkürün inkişafı və formalaşması deyil, həmçinin təxəyyülün inkişafı və formalaşması aktuallaşmışdı. Məzmunu baxımından bir-birindən daha əhəmiyyətli olan, əslində sinifdə əsl möcüzələr yaratmaq imkanlarına malik olan interaktiv təlim metodlarının o qədər zəngin məzmunu var ki,... onlar yaradıcı müəllimin əlində "Ələddinin sehrli lampası" kimi möcüzələr yarada bilir. Məhz bu müəllimlərin dərsində məlum oldu ki, müəllim əsrlər boyu olduğu kimi şagirdə yeni keçiriləcək dərs haqqında geniş məlumat vermədən, sadəcə həmin biliyin "kəşf" edilməsi və yeni ideyalar irəli sürülməsi üçün şərait yaratdıqda, şagirdlər hətta bir-birləri ilə əməkdaşlıq sayəsində yeni biliyi müstəqil olaraq, "kəşf" edə bilir, yeni ideyalar irəli sürə bilir və bu prosesdə onlarda fikri əməliyyatlar inkişaf edib, formalaşır.

**Bu yolla dərsi necə təşkil etmək olar? G.Lefransuanın təqdimatında sualı aşağıdakı nümunə ilə açıqlayır:**

VII sinifdə təbiətşünaslıq dərsi idi. Dərsin mövzusu belə idi: "Şehin düşməsi". Müəllim şagirdlərə belə bir sualla müraciət edir: - Şeh necə əmələ gəlir?

Şagird P. - Mən bilirəm. Yağışdan əmələ gəlir.

Şagird D. - Yox. Yağış olmayanda da şeh olur.

Müəllim - Suala necə cavab verə bilərik?

Şagirdlər xorla: elmi-tədqiqat metodlarının köməyi ilə.

Müəllim şagirdlərin elmi metod anlamını dəqiqləşdirir. O, sonra aydınlaşdırır ki, şeh deyəndə nə başa düşülür. Şagirdlərə təklif edir ki, müvafiq praktik müşahidələr aparsınlar və faktlar toplasınlar.

Növbəti dərslərin birində onlar özlərinin müşahidələrini ümumiləşdirirlər və bu faktlara söykənən intellektual ehtimallar (və ya fərziyyələr) irəli sürürlər ( şeh gündən yaranır, şeh havadan əmələ gəlir, şeh obyektlərin özlərindən əmələ gəlir).

Müəllim şagirdlərə zəruri müşahidələr aparmaqda kömək edərək, istiqamət verir, bəzi hallarda isə o, eksperimentlər fikirləşir: şeh nisbətən soyuq obyektlərdə əmələ gəlir, şeh buludsuz gecələrdə meydana çıxır, şeh əvvəllər tamamilə quru olan obyektlərdə əmələ gəlir...

Şagirdlər, nəhayət, belə bir nəticə ilə razılaşırlar: havada nəmişlik olanda su dənələri əmələ gəlir və onlar obyektin səthində toplaşırlar. Bundan sonra şagirdlər bu nəticənin doğru olmasını yoxlamaq üçün müxtəlif eksperimentlər fikirləşirlər.

ADNSU - 100

## Elmi Şuranın növbəti iclası

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Elmi Şuranın növbəti iclası keçirilib.

Universitetin tədris işləri üzrə prorektoru, dosent Qasım Məmmədov 2019-2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələri haqqında məruzə ilə çıxış edib.

Sonra ali məktəbin rektoru, professor Mustafa Babanlı ADNSU-nun 100 illik yubileyi ilə bağlı tədbirlər planının yerinə yetirilməsi istiqamətində iclas iştirakçıları ilə müzakirə aparıb. İctimaiyyətlə Əlaqələr və Marketinq Departamentinin bu istiqamətdə gördüyü işləri xatırladıb və yeni tapşırıqlar verib.

İclasda, həmçinin Elmi Şuranın qərarı ilə akademik Çingiz Cuvarlı adına təqaüd təsis olunub. Təqaüd energetika fakültəsinin iki ən yüksək tədris göstəricilərinə sahib olan tələbəsinə - 1 bakalavra və 1 magistrə veriləcək.

ADNSU-da bakalavriat səviyyəsində təhsil alan tələbələrin 2019-2020-ci tədris ilində keçəcəkləri təcrübənin vəziyyəti haqqında da məlumat verilib.

Bildirilib ki, artıq IV kurs tələbələri istehsalat müəssisələrində təcrübəyə başlayıblar və universitetlə çoxsaylı şirkətlər arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması tələbələrin istehsalat müəssisələrində təcrübə keçməsini rahatlaşdırıb.

Gündəlikdəki məsələlər müzakirə olunduqdan sonra şura üzvlərinin səsverməsi ilə qərarlar qəbul edilib.

## Macarıstan səfirliyinin nümayəndə heyəti ADNSU-da

Fevralın 27-də Macarıstan səfirliyinin nümayəndə heyəti Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) olub.

ADNSU-nun beynəlxalq əlaqələr üzrə prorektor müavini Ülviyyə Abbasova görüşün məqsədi haqqında məlumat verib.

Macarıstanda ali təhsilin keyfiyyəti, azərbaycanlı tələbələr üçün təqdim olunan imtiyazlar və Azərbaycanla əməkdaşlıq əlaqələri haqqında video təqdimatla çıxış edən Macarıstan səfirliyinin ikinci katibi, Mədəniyyət və təhsil üzrə nümayəndə Mihay Qruber ADNSU ilə əməkdaşlıqda və tələbə mübadiləsində maraqlı olduqlarını diqqətə çatdırıb.

ADNSU-nun Beynəlxalq əməkdaşlıq şöbəsinin əməkdaşı Leyla Nağıyeva universitet, beynəlxalq əməkdaşlıq, tələbə mübadiləsi proqramları, eləcə də mövcud layihələr barədə ətraflı məlumat verib.

Sonra ADNSU-nun əcnəbi tələbələrlə iş üzrə dekan müavini Natiq Məmmədov universitetdə təhsil alan əcnəbi tələbələr, onlar üçün yaradılan tədris şəraiti, eləcə də mübadilə proqramlarından danışıb.

Görüşün sonunda iki ölkə arasında təhsil sahəsində əməkdaşlıq imkanları və mübadilə proqramları haqqında müzakirələr aparılıb, tələbələri və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## ADNSU "Azərbaycan Universitetləri Sərgisi 2020"də

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) "Azərbaycan Universitetləri Sərgisi 2020" adlı ali təhsil sərgisində iştirak edib.

Sabunçu Gənclər Evinin təşkilatçılığı ilə keçirilən sərgidə ADNSU öz stendi ilə təmsil olunub. Universitetdən bildirilib ki, digər təhsil sərgilərində olduğu kimi, bu dəfə də ziyarətçilər ADNSU-ya xüsusi maraq göstəriblər. Universitetin stendində ziyarətçilərə Azərbaycan, rus və ingilis dillərində prospektlər, üç adda buklet və iki dildə nəşr olunan "Oil and Industry" jurnalı vasitəsilə ali məktəbin təqdim etdiyi tədris imkanları və yeniliklərlə tanış olmaq imkanı yaradılıb.

Bundan başqa, stendə yaxınlaşan və ADNSU ilə maraqlanan ziyarətçilər universitetin nümayəndələri ilə bilavasitə ünsiyyət quraraq tədris olunan ixtisaslar, qəbul göstəriciləri, universitetin beynəlxalq əlaqələri və qoşulduğu tələbə mübadilə proqramları, həmçinin ali məktəbdə tələbələr üçün yaradılan imkanlar haqqında məlumat alıblar.

Sərgidə, həmçinin universitetin fəaliyyəti haqqında suallar cavablandırılıb.




# İştirak et, rəy və təkliflərini bildir

## Dərslik layihələri ictimai müzakirələrdə

**Niyazi RƏHİMOV**

Dərsliklər dünyanın bütün ölkələrində müzakirə obyektində olan olduqca həssas məsələlərdəndir. Bu baxımdan Azərbaycan cəmiyyətində də dərsliklərlə bağlı həmişə müxtəlif fikirlər yürüdülür, məsələ daim geniş müzakirələrə səbəb olur. Bütün bunları nəzərə alan Təhsil Nazirliyi 2016-cı ildən başlayaraq dərslikləri çapa getmədən öncə ictimai müzakirəyə çıxarmağa qərar verdi. Məqsəd dərsliklər çapa getmədən öncə ictimaiyyətin fikrini öyrənmək, cəmiyyətin həssas yanaşdığı məqamları görmək, təklif və rəyləri nəzərə almaqla şagirdlərə daha təkmil dərslik təqdim etmək idi. Bəs, dərsliklərin ictimai müzakirəyə çıxarılması nəyi dəyişdirdi? Ümumiyyətlə, proses necə həyata keçirilir? Müzakirələrdə daha çox kimlər aktivlik nümayiş etdirir? Bu və ya digər suallarımıza cavab tapmaq məqsədilə Təhsil Nazirliyinin Dərslik və nəşriyyat şöbəsinin baş məsləhətçisi Vüsalə Əliyeva ilə söhbətləşdik.

Vüsalə Əliyeva bizimlə söhbətində bildirdi ki, artıq 5-ci ildir ki, dərsliklər ictimai müzakirəyə buraxılır. Müzakirələrdə aktivlik olduğunu da deyən nazirlik rəsmisi qeyd edib ki, 2019-cu ildə müzakirəyə çıxarılan dərsliklərə çoxsaylı rəylərin daxil olması müşahidə olunub: “Haqlı hesab edilən rəy və təkliflərin hər biri nəzərə alınıb və bundan sonra dərsliklər çapa göndərilib. Prosesin özünü doğrultduğunu düşünürəm. Hazırda I, V və IX sinif dərslikləri ictimai müzakirəyə buraxılıb. Ümid edirəm ki, bu il də müzakirəyə çıxarılan dərsliklərə böyük maraq göstəriləcək”. Nazirlik rəsmisi onu da diqqətə çatdırdı ki, dərslik layihələrinə dair ictimai rəyin öyrənilməsində iştirak etmək istəyənlər *www.trims.edu.az* saytının “İctimai müzakirədə olanlar” bölməsinə daxil olmaqla yerləşdirilən istənilən layihəni oxuya, eyni zamanda xüsusi ayrılmış sahədə rəy və təkliflərini yazaraq prosesə öz töhfələrini verə bilərlər. Rəy və təkliflər *derslik@edu.gov.az* elektron poçtuna göndərilməklə də bildirilə bilər. V.Əliyeva vurğuladı ki, Təhsil Nazirliyi alimləri, təhsil işçilərini, ziyalıları, valideynləri, bir sözlə, bütün vətəndaşları müzakirəyə çıxarılacaq dərslik layihələrinə dair rəy və təkliflərini bildirməkdə maraqlıdır.

### Nazirlik ictimai müzakirədə istənilən qurumla əməkdaşlıq etməyə hazırdır

Vüsalə Əliyeva qeyd edir ki, nazirlik ictimai müzakirədə istənilən qurumla əməkdaşlığa hazırdır: “DİM, AMEA-nın müvafiq profilli institutları, pedaqoji kadr hazırlığı ilə məşğul olan ali təhsil müəssisələri, məktəblər, Təhsil İnstitutu ilə sıx əməkdaşlıq edirik. Ötən il əlavə olaraq Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Ombudsman Aparatı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Baş Dövlət Yol Polisi İdarəsi ilə də bu məsələ ilə bağlı əlaqələrimizi genişləndirmişik”.

### “Elə dərsliklər var ki, onlara daha çox rəy və təkliflər gəlir”

V.Əliyeva deyir ki, dərsliklərin ictimai müzakirəsi ilə bağlı statistika da aparılır. O, 2019-cu ildə müzakirəyə çıxarılan IV və VIII sinif dərslik komplektlərində ən çox təklif və rəylərin gəldiyi dərsliklərin adını açıqlayıb: “Elə dərsliklər var ki, onlara daha çox rəy və təkliflər gəlir. Məsələn, ötən il müzakirəyə çıxarılan dərsliklərdən ən çox IV sinif Həyat bilgisi və VIII sinif Azərbaycan tarixi dərsliklərinə rəy və təkliflər gəlib. Sonrakı yerləri IV sinifdən Rus dili (tədris dili) və Azərbaycan dili (tədris dili), VIII sinifdən isə Ümumi tarix və Azərbaycan dili (tədris dili) dərslikləri tutur. Ötənilki müzakirələrdə ən az rəy daxil olan dərsliklər isə IV sinifdən Fransız dili (əsas xarici dil), VIII sinifdən isə Musiqi dərslikləri olub”.

### “Bəzi rayonlar var ki, ictimai rəyin öyrənilməsində daha çox aktivlik göstərir”

Vüsalə Əliyeva onu da deyir ki, ictimai rəyin öyrənilməsində istər paytaxtdan, istərsə də respublikamızın bütün bölgələrindən təkliflər alırıq. Lakin bəzi rayonlar var ki, ictimai rəyin öyrənilməsində daha çox aktivlik göstərirlər. Məsələn, 2019-cu ildə keçirilən ictimai müzakirələrdə Naxçıvan MR-nın rayonları, Salyan, Hacıqabul, Qusar və Qax rayonlarından olan müəllimlər digər bölgələrlə müqayisədə daha çox rəy və təkliflər göndərib.

### Rəy və təkliflər müəllif və nəşriyyata göndərilir

Daxil olan rəy və təkliflərin nəşriyyat və müəllifə göndərildiyini də deyən nazirlik rəsmisi qeyd edir ki, nəşriyyat tərəfindən hər bir rəyin qəbul edilib-edilməməyi yazılır: “Rəylər müəllif tərəfindən qəbul edilmirsə, onda əsaslandırılmalıdır ki, niyə qəbul edilmir. Təbii ki, bu rəylərə ekspertlər də baxırlar və onların qəbul edilməlidir dediyi, lakin müəllifin isə qəbul etmədiyi məqamlar yarandığı təqdirdə, təkrar müzakirələr aparılır, yekdil qərar qəbul edilir”.

*Fürsətdən istifadə edib ictimai müzakirələrdə aktivlik göstərən müəllimlər, ictimaiyyət nümayəndələri ilə də söhbətləşdik.*

### “İradlarım obyektiv şəkildə araşdırıldı və nəzərə alındı”

*Abşeron rayon Mehdiabad qəsəbə 1 nömrəli tam orta məktəbin tarix müəllimi Sərvər Rüstəmov* bir neçə ildir ki, ictimai rəyin öyrənilməsində yaxından iştirak etdiyini deyir. O, ötən il müzakirələrdə 8-ci sinif Azərbaycan tarixi və Ümumi tarix dərsliklərinə bir sıra təklif və rəylər yazdığını belə şərh edir: “VIII sinif Azərbaycan tarixi dərsliyinin 139-cu səhifəsində 4-cü abzasda “Xanlıqlarda vergilərin toplanması üçün xüsusi qayda yox idi” cümləsi dəqiq deyildi. Vergilər hər xanlıqda müəyyən qayda və uzun müddət formalaşmış adətə əsasən yığılırdı. Məsələn, malcəhət vergisi, demək olar ki, əksər xanlıqlarda eyni cür, yəni məhsulun onda biri həcmində yığılırdı. Bu düzəlişi öz qeydlərimdə bildirdim. Bundan başqa, Ümumi tarix dərsliyində də bir sıra rəy və təkliflərim var idi. Təkliflərim obyektiv şəkildə araşdırıldı və nəzərə alındı”.

### “Bu proses mükəmməl dərsliyin ərsəyə gəlməsinə rəvac verir”

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika fakültəsində baş müəllim vəzifəsində çalışan Ravil Rzayev* də müzakirələrdə fəal iştirak edir. O, bizimlə söhbətində bildirir ki, bir təhsil adamı olaraq müzakirələrdə iştirak etmək çox vacibdir. Müzakirələrdə haqlı rəy və təkliflərin dərhal nəzərə alındığını deyən Ravil müəllim onu da qeyd edir ki, bu proses mükəmməl dərsliyin ərsəyə gəlməsinə rəvac verir: “İctimai rəydə bəlkə də 200-300 təklif göndərilir, müzakirə olunur, qənaətbəxş hesab olunanlar nəzərə alınır. Məsələn, mən rəylərimdə 8-ci sinif Fizika dərsliyi səhifə 119-da İşin gedişində 3-də əvvələ “Kürələrə əlinizlə toxunub onları elektriksizləşdirin.” cümləsinin əlavə edilməsini məqsədəuyğun hesab etmişdim. Bundan başqa, 8-ci sinif Fizika dərsliyində səhifə 10-da “Məsələdə” qeyd olunmuşdur ki,: “L, M və N suqızdırıcılarına başlanğıc temperaturu 18$^{o}$C olan müxtəlif miqdarda su doldurulmuşdur (d).” Bu cümlənin aşağıdakı kimi verilməsini məqsədəuyğun hesab etmişdim. “L, M və N suqızdırıcılarında başlanğıc temperaturu 18$^{o}$C, kütlələri müxtəlif olan su var (d).”. Əsaslandırmam isə belə idi: “Miqdar yazmaqla hansı fiziki kəmiyyətdən söhbət getdiyini dəqiq vurğulamırıq deyə, cümlənin verilmiş şəkli şagird üçün anlaşıqsız olacaq. Odur ki, miqdar əvəzinə kütlə yazmaq daha dolğun olar”. Qeyd etdiyim rəy və təkliflərdən başqa da misallar çəkə bilərəm. Sevindirici hal odur ki, rəy və təkliflərə heç bir qərəz olmadan yenidən baxılır”.

### “Müzakirələrdə iştirak etməyi özümə borc bilirəm”

*Müxtəlif şirkətlərdə akademik və professional məqsədlər üçün ingilis dili proqramını tədris edən, Honq-Konq Universitetində magistr təhsili alan Aynur Dadaşova* da müzakirələrdə aktiv iştirak edənlərdəndir. O, hazırda heç bir təhsil müəssisəsində çalışmadığını, lakin buna baxmayaraq vətəndaş mövqeyi nümayiş etdirərək dərsliklərin müzakirəsində iştirak etməyi özünə borc bildiyini deyir: “Mən bir keçmiş orta məktəb müəllimi olaraq 8-ci sinif ingilis dili fənni dərsliyi üzərində araşdırma apardım. Əvvəla onu deyim ki, dərsliyin ingilis dilində tərtib olunması müsbət dəyişiklikdir. Çünki əvvəlki ingilis dili dərsliklərində mətnlərdə işlənən sözlərin Azərbaycan dilində tərcümələri verilirdi. İndi isə birbaşa ingilis dilində izahı verilir. Təkliflərim çox olub. Misal üçün deyə bilərəm ki, 8-ci sinif ingilis dili dərsliyində dinləmə tapşırıqları daxil edilmişdir. Amma oxu materialları daha çox və mətnlərin həcmi çox böyük idi. Təklif etdim ki, 8-ci sinif şagirdi üçün 45 dəqiqəlik dərs prosesində mətnlər çox ağırdır və çox zaman aparır. Buna görə də müəllim vəziyyəti yüngülləşdirmək üçün Azərbaycan dilinə tərcümə etmək üsuluna əl atır. Nəticədə ingilis dili dərsində Azərbaycan dilində danışmaq mühiti yaranır. Bunun qarşısını almaq üçün mətnlərin həcmini azaltmağı tövsiyə etdim. Bundan başqa, dərsliklərdə gender bərabərliyi məsələləri haqqında da öz fikirlərimi yazdım. Toxunduğum məsələlərin əksəriyyəti nəzərə alındı”.

*İstər nazirlik rəsmisinin, istərsə də müzakirələrdə fəal iştirak edənlərin dediklərindən bu qənaətə gəldik ki, ictimai rəylərin öyrənilməsi dərsliklərin şagirdlərə daha mükəmməl şəkildə təqdim olunmasına səbəb olur.*

# Müddətsiz əmək müqaviləsi əsasında işləmək istəyən müəllimlərin nəzərinə

Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində müddətli əmək müqaviləsi əsasında işləyən müəllimlərin müddətsiz əsaslarla işə qəbulu müsabiqəsinə start verilir.

Təhsil İnstitutunun nəzdində fəaliyyət göstərən İnsan Resursları Mərkəzi tərəfindən keçirilən müsabiqədə iştirak etmək istəyən namizədlər cari ilin 2-6 mart tarixlərində *www.miq.edu.az/muqavile/* saytında qeydiyyatdan keçməlidirlər.

Müsabiqədə 2018-2019-cu və 2019-2020-ci tədris illəri üçün keçirilmiş müəllimlərin işə qəbulu müsabiqəsində zəruri keçid balını toplayan, pedaqoji istiqamətlər üzrə orta ixtisas və ya ali təhsilli, tutulmayan və ya yeni yaranan vakant yerlərə müddətli əmək müqaviləsi ilə işə qəbul edilmiş müəllimlər iştirak edə bilərlər.

Qeyd edək ki, həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələrinə musiqi, təsviri incəsənət, fiziki tərbiyə fənləri üzrə keçid balı 42, digər fənlər üzrə 48, həvəsləndirmə tədbirləri tətbiq olunan ümumi təhsil müəssisələrinə musiqi və təsviri incəsənət fənləri üzrə 30, digər fənlər üzrə 36 bal müəyyən edilib.

Müsahibə proqramı və materialları barədə məlumatlar *www.miq.edu.az/muqavile/* saytında yerləşdiriləcək.

# Xarici ölkə səfirləri BSU-da anım tədbirində

**Niyazi RƏHİMOV**

Fevralın 25-də Bakı Slavyan Universitetində (BSU) Yeni Azərbaycan Partiyasının, 17 xarici ölkə səfirinin və diplomatik korpus nümayəndələrinin, müxtəlif dövlət qurumlarının məsul şəxslərinin, universitet rektorlarının, millət vəkillərinin, tanınmış ictimai-siyasi, elm, təhsil, mədəniyyət və incəsənət xadimlərinin, media strukturlarının rəhbərlərinin, qeyri-hökumət təşkilatlarının təmsilçilərinin, Qarabağ müharibəsi veteranlarının iştirakı ilə Xocalı soyqırımının iyirmi səkkizinci ildönümünə həsr olunmuş “Xocalı soyqırımı-əsrin faciəsi” adlı tədbir keçirilib.

Öncə iştirakçılar universitetin foyesində Xocalı faciəsinə həsr olunmuş fotosərgiyə baxış keçirib.

BSU-nun akt zalında davam edən tədbirdə əvvəlcə Xocalı soyqırımı qurbanlarının, eləcə də Azərbaycanın ərazi bütövlüyü və dövlət müstəqilliyi uğrunda şəhid olmuş soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva bildirib ki, xalqımızın və bəşəriyyətin tarixinə qanlı faciə kimi daxil olmuş Xocalı soyqırımından 28 il keçir. Qeyd edilib ki, xain, məkrli və namərd qonşularımız olan ermənilər iki əsrdən çoxdur ki, xalqımıza qarşı soyqırımı və deportasiya siyasəti aparır. Xocalı soyqırımı bu mənfur və məkrli siyasətin ən qanlı, ən faciəli səhifələrindən biridir. Xocalı soyqırımı xalqımıza qarşı törədilmiş böyük hərbi cinayətdir.

Rektor Nurlana Əliyeva onu da vurğulayıb ki, xalqımızın digər faciələri kimi, Xocalı soyqırımına da siyasi-hüquqi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verilib. Prezident İlham Əliyev Xocalı soyqırımının bütün dünyada tanıdılmasını dövlətimizin xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirib. Birinci vitse-prezident Mehriban Əliyevanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, o cümlədən Xocalı soyqırımı barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırılması istiqamətindəki fəaliyyətindən də danışan rektor bildirib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlayan “Xocalıya ədalət!” beynəlxalq təbliğat-təşviqat kampaniyası dünyanın 80-dən çox ölkəsində uğurla həyata keçirilir.

N.Əliyeva bildirib ki, Azərbaycan xalqı həmişə Xocalı soyqırımı qurbanlarının xatirəsini əziz tutur, xalqımıza qarşı törədilmiş bu qətliamın ideoloqlarını, təşkilatçılarını və icraçılarını nifrətlə lənətləyir.

Tədbirdə BSU-nun tələbə-gəncləri dünyanın müxtəlif dillərində “Xocalıya ədalət!” şüarını səsləndiriblər.

Sonra Heydər Əliyev Fondunun sifarişi ilə ingilis dilində çəkilmiş “Xocalı qətliamı” filmi nümayiş etdirilib, BSU-nun jurnalistika kafedrasının müdiri, professor Şəlalə Həsənovanın rus dilində “Xocalı soyqırımı” və Tələbə Elmi Cəmiyyətinin sədri Könül Zeynallının “Xocalı soyqırımı gənclərin gözü ilə” mövzularında məruzələri dinlənilib.

Daha sonra Xocalı faciəsinin şahidi, Xocalı hava limanının əməkdaşı olmuş Nazim Hüseynov çıxış edərək şahidi olduğu qanlı hadisələr barədə ürəkağrısı ilə danışıb.

Sonda quruluşçu rejissoru Əli Natiqoğlu olan və BSU-nun tələbə-gənclərinin səhnələşdirdikləri Xocalı soyqırımı qurbanlarına həsr olunmuş “Ana harayı” tamaşası nümayiş etdirilib.

# Süni intellekt məktəblərin tədris planına daxil ediləcək




**Oruc MUSTAFAYEV**

Rusiyanın Maarif Nazirliyi 2021-ci ilə qədər süni intellekt tədqiqatını məktəb tədris planlarına daxil etməyi planlaşdırır. “Sberbank” və “Birbaşa İnvestisiya Fondu” tərəfindən tərtib olunan sənəddə qeyd olunur ki, süni intellektin məktəb təhsilinə inteqrasiyası üçün qrantların ayrılmasını təmin etmək məqsədilə federal büdcə vəsaitlərinin verilməsi qaydaları hazırlanıb.

Bundan başqa, 2020-ci ildə federal dövlət təhsil standartlarına və nümunəvi ümumtəhsil proqramlarına uyğun olaraq süni intellektin tətbiqi ilə əlaqədar təhsil modullarının işlənib hazırlanması təmin edilib.

2021-ci ildə Maarif Nazirliyi əsas təhsil proqramlarının bir hissəsi olaraq “Süni intellekt” təlim modullarını sınaqdan keçirəcək. Layihə 2024-cü ilin sonuna qədər məktəblərin ən azı 50 faizini əhatə edəcək.

Müəllimlər süni intellekt üzrə tam iş və yarım-ştat formatında qabaqcıl təlim keçməli olacaqlar. Məktəblilər üçün ümumrusiya olimpiadası təşkil olunacaq, onun nəticələrinə əsasən, şagirdlər universitetə daxil olarkən əlavə bal toplaya biləcəklər. Bütün tədbirlər “Süni intellekt” federal layihəsi çərçivəsində həyata keçiriləcək.

Qeyd edək ki, 2019-cu ilin noyabrında “Aber Journey” konfransında ölkənin iri şirkətləri - “Sberbank”, “Gazprom Neft”, “Yandex”, “Mail.ru Group”, “MTS” və “RDIF” süni intellekt alyansı yaratmaq üçün əməkdaşlıq müqaviləsi imzalayıblar. Süni intellektin məktəblərin tədris proqramına daxil edilməsi gələcəkdə Rusiya şirkətlərinin beynəlxalq bazara çıxarılmasının bir yolu kimi qiymətləndirilir.

# Dərs cədvəlinin düzgün tərtibi

## Təlim prosesində səmərəliliyin artırılmasında dərs cədvəlinin elmi-pedaqoji tələblər əsasında tərtibi vacib amillərdəndir




**Rafael ASLANOV,**
*Bərdə şəhər 8 nömrəli tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini, "Qabaqcıl təhsil işçisi"*

Məktəbin keyfiyyətli idarə olunmasında, təlim prosesində səmərəliliyin artırılmasında dərs cədvəlinin elmi-pedaqoji tələblər əsasında tərtib edilməsi vacib amillərdəndir. Dərs cədvəlinin düzgün tərtib olunması şagirdlərin təlim materiallarını yaxşı mənimsəməsinə də müsbət təsir göstərir.

Dərs cədvəlinin tərtibində həftənin ayrı-ayrı günlərinin çətin fənlərlə həddindən artıq yüklənməsi şagirdlərin iş qabiliyyətinin aşağı düşməsinə səbəb olur. Həm də düzgün tərtib olunmayan dərs cədvəli şagirdlərdə yorğunluq, diqqətsizlik kimi halların baş verməsinə gətirib çıxarır. Bundan başqa, tələblərə cavab verməyən dərs cədvəli tədris prosesində həmçinin intensivliyi azaldır, şagirdlərin yorğunluğu həftə ərzində getdikcə artır, eyni zamanda müəllim əməyinin səmərəsinə mənfi təsir göstərir.

Ona görə də dərs cədvəli tərtib edilərkən şagirdlərin yaş xüsusiyyətləri, fənlərə verilən saatların miqdarı, fənlərin çətin, orta çətin, asan olmaqla cədvəldə yerləşdirilməsi mühüm amillərdəndir. Bütün siniflərdə dərs cədvəli tərtib olunarkən fənlərin gün ərzində ardıcıllıqla düzgün yerləşdirilməsi çox vacibdir.

Bəs, dərs cədvəlində fənlərin ardıcıllığı necə olmalıdır?

Azərbaycan dili, riyaziyyat, kimya, fizika fənləri cədvəldə gunün ilk saatlarında yerləşdirilməlidir.

Coğrafiya, tarix, biologiya, xarici dil fənlərinin cədvəldə sonrakı saatlarda yerləşdirilməsini isə daha məqsədəuyğun hesab etmək olar.

Texnologiya, musiqi, təsviri incəsənət, fiziki tərbiyə, çağırışaqədərki hazırlıq dərslərini isə sonuncu saatlara yerləşdirilməsi daha düzgündür.

Əlbəttə, bu fikirlərim nisbidir. Hər hansı bir fənn şagird üçün çətin, digəri üçün isə asan ola bilər. Bir məsələni də qeyd edək ki, şagirdlərin hər hansı fənni mənimsəməsində müəllim metodikasının, səriştəliliyinin, onun fənninə qarşı şagirdlərdə yaratdığı marağın da çox böyük əhəmiyyəti var.

Dərs cədvəlinin tərtibində subyektivçiliyə də yol vermək olmaz. Eyni gündə cədvəldə tarix və coğrafiya, fizika və kimya dərsi varsa, əvvəl coğrafiya, sonra tarix, əvvəl fizika, sonra isə kimya dərslərini salmaq daha məqsədəuyğundur.

Cədvəli tərtib edərkən həftə ərzində günlərin də məhsuldarlığı nəzərə alınmalıdır. Həftənin 2-ci, 3-cü və 4-cü günləri şagirdlərin iş qabiliyyətinin məhsuldarlıq günləri hesab etmək olar.

Cədvəl fənlərə görə necə qurulmalıdır?

I-IV siniflərin dərs cədvəlində dərslər ana dili, riyaziyyat, xarici dil, sonra texnologiya, informatika, musiqi, fiziki tərbiyə, həyat bilgisi fənləri ilə sıralanır.

V sinifdə isə Azərbaycan dili, riyaziyyat, xarici dil, tarix, həyat bilgisi, informatika, təsviri incəsənət, musiqi, fiziki tərbiyə, texnologiya fənləri ilə yerləşdirilir.

VI sinifdə Azərbaycan dili, riyaziyyat, xarici dil, fizika, tarix, ədəbiyyat, biologiya, coğrafiya, informatika, həyat bilgisi, texnologiya, təsviri incəsənət, musiqi, fiziki tərbiyə, VII sinifdə Azərbaycan dili, riyaziyyat, kimya, fizika, tarix, ədəbiyyat, biologiya, coğrafiya, həyat bilgisi, informatika, texnologiya, təsviri incəsənət, musiqi, fiziki tərbiyə, VIII sinifdə Azərbaycan dili, riyaziyyat, xarici dil, kimya, fizika, biologiya, ədəbiyyat, coğrafiya, tarix, informatika, həyat bilgisi, texnologiya, təsviri incəsənət, musiqi, fiziki tərbiyə fənlərinin ardıcıllığı mütləq qorunmalıdır.

IX siniflərə gəldikdə isə ardıcıllıq belə olmalıdır. Riyaziyyat, fizika, kimya, biologiya, ədəbiyyat, tarix, coğrafiya, informatika, fiziki tərbiyə, həyat bilgisi, texnologiya, təsviri incəsənət, musiqi, fiziki tərbiyə.

Cədvəl qurularkən ən həssas yanaşmalı olduğumuz siniflər isə X-XI siniflərdir. Burada siniflərin təmayüllər üzrə formalaşması da xüsusi əhəmiyyət daşıyır. Qaydalarda da qeyd edildiyi kimi dərslərin ardıcıllığı bu qaydada həyata keçirilməlidir. X sinifdə - fizika, kimya, riyaziyyat, tarix, xarici dil, coğrafiya, Azərbaycan dili, ədəbiyyat, informatika, çağırışaqədərki hazırlıq, fiziki tərbiyə, XI sinifdə isə Azərbaycan dili, ədəbiyyat, riyaziyyat, kimya, tarix, biologiya, coğrafiya, informatika, çağırışaqədərki hazırlıq, fiziki tərbiyə fənlərinin ardıcıllıqla yerləşdirilməsi məqsədəuyğun hesab edilə bilər.

1,5,6,7-ci saatlarda şagirdlərin iş qabiliyyətinin aşağı düşməsini nəzərə almaqla dərs cədvəlinə orta çətin və asan dərslərin yerləşdirilməsi daha məqsədəuyğundur.

Məsələn, ədəbiyyat, xarici dil, tarix, biologiya birinci saata, texnologiya, təsviri incəsənət, musiqi və nəğmə, fiziki tərbiyə, çağırışaqədərki hazırlıq, informatika dərslərinin altıncı, yeddinci saatlara salınması tövsiyə olunur.

Bir sözlə, gün və həftə ərzində şagirdlərin iş qabiliyyətinin dəyişməsinin nəzərə alınması ilə tərtib edilən dərs cədvəli təlimin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsində birmənalı şəkildə əsas rola malikdir.

Pedaqoji prosesin vacib amillərindən olan sinif-dərs məşğələsinin keyfiyyətində də dərs cədvəlinin düzgün tərtibinin çox böyük əhəmiyyəti var.

Fakültativ məşğələlər V və VIII siniflərdə 1 saat olmaqla, məktəbdə əsasən Azərbaycan dili, riyaziyyat, xarici dil (ingilis dili), tarix, coğrafiya, kimya, fizika, biologiya fənlərinin tədrisinə verilir.

Fakültativ məşğələlər əsas dərs cədvəlində dərslər qurtardıqdan sonra başlayır. Burada şagirdlərin istirahət vaxtını nəzərə almaq vacib amillərdəndir.

Dərnək məşğələləri isə 5 günlük iş həftəsində əsasən şənbə gününə salınır və 1 akademik saat, fakültativ məşğələ isə 1 dərs saatı müddətində fəaliyyət göstərir.

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 2364, **Sifariş** 726

**Məsul növbətçi:** Ş.Cəfərov

# Paytaxt məktəblisi beynəlxalq olimpiadanın birincisi olub

Şakir CƏFƏROV



Bakıda məktəblilər arasında riyaziyyat üzrə beynəlxalq olimpiada keçirilib.

250 şagirdin qatıldığı bu olimpiadada İngiltərə, Rusiya, İsveçrə, Özbəkistan, Qazaxıstan, Ukrayna və digər ölkələrdən gəlmiş məktəblilər də iştirak ediblər.

Olimpiadada öz yaş qrupunda iştirak edən məktəblilər arasında Bakıdakı 23 nömrəli tam orta məktəbin II sinif şagirdi Ruslan Məmmədov I yerə layiq görülərək diplom və kubokla təltif olunub.

Qeyd edək ki, Ruslan Məmmədov 1 ildən çoxdur ki, "İndiqo" Zehni Riyaziyyat Klubunda keçirilən məşqlərdə iştirak edir.

# Etibarsız sayılır

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1993-cü ildə İsmayılova Leyla Zakir qızına verilmiş ЦВ-841047 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ukrayna Dövlət Dəmir Yolu Nəqliyyatı Akademiyası** tərəfindən 2005-ci ildə Mehdiyeva Gülnarə Nurəddin qızına verilmiş Dİ-010023 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2007-ci ildə Paşayev Rövşən Səyyad oğluna verilmiş B-102777 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Kolleci** tərəfindən 1997-ci ildə Babayeva Amalya Ələddin qızına verilmiş AB-II-011271 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 39 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Laçınov Sahib Sabir oğluna verilmiş A-521528 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədova Mahizər Əflatun qızına verilmiş B-030626 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Ayaqqərvənd kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Mirzalıyeva (Nuriyeva) Tünzalə Malik qızına verilmiş BN-321316 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2015-ci ildə İbrahimova Adilə Arzu qızına verilmiş A-075653 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Asxanakəran kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Babayev Valid Bəhrəm oğluna verilmiş ƏS-000435 nömrəli tam orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Təngərüd kənd tam orta məktəbini 1978-ci ildə bitirmiş Kərimov Tarif Ümüd oğluna verilmiş A-141478 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Namazova Günay Səfər qızına verilmiş A-068663 nömrəli ümumu orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Kakalos kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Əliyev Etiram Hacıkişi oğluna verilmiş A-184811 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 3 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əbilzadə Xəyalə Tariyel qızına verilmiş B-533559 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Balakürd kənd tam orta məktəbini 2013-cü ildə bitirmiş Kazımov Pərviz Sədrəddin oğluna verilmiş A-248889 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 195 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Abdullayeva Günel Məhərrəm qızına verilmiş B-342750 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Əmrahlı Cahandar Nazim oğluna verilmiş A-034251 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Veri kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş İbrahimov Fəxrəddin Dədəcan oğluna verilmiş A-036171 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 8 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Feyzullayeva Türkan Tahir qızına verilmiş B-624617 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2007-ci ildə Əliyev Emin Nəbi oğluna verilmiş B-100252 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Sovxoz-texnikumu tərəfindən 1991-ci ildə Böyükağayev İslam Məmməd oğluna verilmiş HT-I-550955 nömrəli diplom itidiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 171 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əhmədli Yasin Etibar oğluna verilmiş B-595402 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 3 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Babayeva (Ağayeva) Mətanət Hüseyn qızına verilmiş И.7-00175 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Baş Küngüt kənd tam orta məktəbini 2013-cü ildə bitirmiş Babayev Sərxan İlham oğluna verilmiş A-271778 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri Universiteti** tərəfindən 1999-cu ildə Məmmədov Qabil Adilxan oğluna verilmiş A-047145 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qədirli kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Abdullayeva Günel Elxan qızına verilmiş A-187330 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**DİN-in Polis Akademiyası** tərəfindən 2009-cu ildə Ağayev Asif İsa oğluna verilmiş BB-I-011074 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Həbib Babayev adına tam orta məktəbi 2011-ci ildə bitirmiş Yusubova Mirvari Elşad qızına verilmiş A-059523 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri İnstitutu** tərəfindən 1993-cü ildə Tağıyev Faiq Urşan oğluna verilmiş AB-I-067152 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Bağman kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Rəsulova Vüsalə Həmzə qızına verilmiş B-110655 nömrəli tam orta təhsil haqqnda attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Ənvərli İlkin İlqar oğluna verilmiş B-590095 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbini 2003-cü ildə bitirmiş Əsədov Əkbər Rza oğluna verilmiş A-735094 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Girdəni kənd tam orta məktəbin VIII sinfini 1993-cü ildə bitirmiş Qubadov Fərrux Əlişa oğluna verilmiş A-037481 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Vayxır kənd tam orta məktəbini 2002-ci ildə bitirmiş Məmişova Pərvanə Hüseyn qızına verilmiş 609634 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 3 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Manafov Sənani Vaqif oğluna verilmiş 164680 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Xoreoqrafiya Məktəbi** tərəfindən 1975-ci ildə Zakirov Rəhimcan Şərifoviçə verilmiş Э-002552 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2008-ci ildə Turablı Babək Vidadi oğluna verilmiş BN-136622 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən şəhər** İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Məmmədli Sevil Tahir qızına verilmiş A-116162 nömrəli şəhadətnamə və 2013-cü ildə verilmiş A-258958 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Qara Nuru kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Hüseynova (Əliyeva) Samirə İmaməli qızına verilmiş B-082680 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Qara Nuru kənd tam orta məktəbinin IX sinfini 1998-ci ildə bitirmiş Mənsimov Qalib Xudaqulu oğluna verilmiş B-221263 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1990-cı ildə Keyseruxskaya Fatimə Şamil qızına verilmiş УВ-I-118941 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 6 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Həsənov Şiraslan Qənbər oğluna verilmiş A-463033 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaser kənd tam orta məktəbini 1981-ci ildə bitirmiş Ağayev Rasim Cəfər oğluna verilmiş A-412479 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2018-ci ildə Həbibov Vaqif Mübariz oğluna verilmiş CN-001495 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2018-ci ildə Orucov Fərid Bəhlul oğluna verilmiş C-012515 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 10 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Əliyev Nicat Yadigar oğluna verilmiş A-557182 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Adnalı kənd tam orta məktəbini 1992-ci ildə bitirmiş Həmidova (Əskərova) Dilruba Nüsrət qızına verilmiş A-274026 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Göylər kənd 1 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş İsmayılov Alim Ağarza oğluna verilmiş A-460592 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Hacıqədirli kənd tam orta məktəbinin IX sinfini 2001-ci ildə bitirmiş Xalıqova (Ağayeva) Rəxşanə Valeh qızına verilmiş A-092184 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 8 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Hüseynova (Əliyeva) Nərgiz İsabala qızına verilmiş A-000912 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Parça Xalac kənd tam orta məktəbini 2007-ci ildə bitirmiş Eyvazova Könül Əmrah qızına verilmiş B-467509 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Mololon kənd ümumi orta məktəbinin IX sinfini 1995-ci ildə bitirmiş Rüstəmov Şamxal Malik oğluna verilmiş 1841 nömrəli ümumi orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye Pedaqoji Texnikumu** tərəfindən 2005-ci ildə Sarıyeva Samirə Tumarxan qızına verilmiş BB-II-024461 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Hindarx qəsəbə 1 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Allahverdiyeva Hüsniyə Eldəniz qızına verilmiş A-524371 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Çəmənli kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Quliyeva İlkanə Hüseyn qızına verilmiş BN-243327 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Siyaqut kənd tam orta məktəbini 2011-ci ildə bitirmiş Məmmədov Asim Vüqar oğluna verilmiş A-001136 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2019-cu ildə Məmmədova Xədicə Elman qızına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Əliyeva Sevda Fəxrəddin qızına verilmiş B-370681 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Bakı şəhər 23 nömrəli tam orta məktəbin direktoru Yuliya Kərimovaya

**ATASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



# Rəqabətlilik naminə

⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

Təbii ki, bu məsələnin həlli hər iki tərəfdən əzmkarlıq və iradə tələb etdi. Layihə hazırlanarkən əsas diqqət yetirdiyimiz məqam isə tədris planlarının hazırlanmasında Azərbaycan təhsil sisteminin reallığı və potensialının nəzərə alınması idi. Bu, bizim üçün ən başlıca və önəmli məqsəd idi. Əsas məqsədimiz gələcək tələbələrə 3 elementə diqqət yönəltmək idi. Birincisi, müasir bilik, ikincisi, dünya tələblərinə cavab verən bacarıqlar və üçüncüsü, iş bazarında rəqabətliliyə davam gətirə biləcək peşəkar qabiliyyətlərin, keyfiyyətlərin inkişaf etdirilməsidir. Çətinliklər hər bir layihədə olduğu kimi, bizim layihədə də oldu. Lakin nəticə olaraq hər iki tərəfin ən yüksək peşəkarlığı sayəsində baryerlər aradan qalxdı. Layihənin artıq icrasına başlanılıb. Proqramın nə qədər uğurlu olacağı artıq tək bizim əlimizdə deyil, həm də cəmiyyətin də ixtiyarındadır.

## Sevinc Məmmədova: "Corc Vaşinqton Universiteti ilə əməkdaşlıq Azərbaycan ali təhsilinin inkişafına müsbət töhfələrini verəcək"



### Nəzəriyyə və praktikanın balansı

*– Corc Vaşinqton Universiteti tələbələrimizə nələri öyrədəcək? Proqramın üstünlükləri barədə nə deyə bilərsiniz?*

– Corc Vaşinqton Universitetinin ikili diplom proqramı tələbələrin 4 istiqamətdə bilik və bacarıqlarının artırılmasını vəd edir. Bunlar, birincisi, təhsil siyasəti, ikincisi beynəlxalq təhsil, üçüncüsü tədqiqat metodologiyası və dördüncüsü təşkilati idarəetmə və liderlik istiqamətləridir. Ümumiyyətlə, proqramın ən böyük üstünlüyü praktiki bilik və bacarıqların müasir tələblərə uyğun tədris edilməsidir. Proqramda tədrisi həyata keçirən professorların, demək olar ki, hamısının tədqiqatlarla yanaşı, yüksək praktiki təcrübələri var. Onlar müxtəlif sahələrdə təcrübə keçiblər. Yəni, Corc Vaşinqton Universitetində həm professor kimi dərs deyirlər, həm də ölkənin öndə gedən təşkilatlarında müxtəlif vəzifələrdə çalışırlar. Nəzəriyyə və praktikanın balansını yaradan bu proqram tələbələrə effektiv alətlərin hazırlanmasını və tətbiqini öyrədəcək. Buna bizim proqramın ən mühüm üstünlüyü də demək olar. Bizim proqram Amerikada ona görə daha çox tanınır ki, biz həm nəzəriyyə, həm də praktika baxımından kifayət qədər balans yarada bilirik. Beynəlxalq proqram vasitəsilə biz Azərbaycanda tələbələrə bu bacarıqları öyrədə biləcəyik.

### "Proqramın iştirakçıları, gənclərimiz gələcəyin təhsil strateqləri olacaqlar"

*– Hər hansı proqram və ya layihə üzərində işləyərkən (xüsusən də təhsil sahəsi üzrə) diqqət yetirilən mühüm aspektlərdən biri əldə etmək istədiyimiz nəticələrin əvvəlcədən proqnozlaşdırıla bilən olmasıdır. Necə bilirsiniz, rəhbəri olduğunuz layihənin uğurlu nəticələrini proqnozlaşdırmaq olarmı?*

– Məncə, layihənin uğurlu olmasında hər birimizin rolu yüksək olmalıdır. Bu işdə yalnız proqrama cəlb olunmuş təhsil işçiləri, professorlar və yaxud tələbələr deyil, bütün aidiyyəti orqanlar da öz dəstəyini əsirgəməməlidir. Proqram çərçivəsində ən vacib elementlərdən biri təhsilin ikinci ilindən təcrübə proqramının (internship program) həyata keçirilməsidir. Ümid edirik ki, bu təcrübə proqramının icrası zamanı təhsil sahəsində fəaliyyət göstərən özəl və dövlət orqanları tələbələrə öyrəndikləri bilikləri tətbiq etmək üçün geniş fürsətlər yaradacaq. Bu, deyərdim ki, tələbələrə yalnız dəstək deyil, ümumiyyətlə, təhsilimizin inkişafına töhfələr verəcək. Son nəticəni proqnozlaşdırmağa çalışsaq, görərik ki, bu proqramın iştirakçıları, gənclərimiz gələcəyin təhsil strateqləri olacaqlar. Bu insanlar təhsilin gələcək taleyini həll edən şəxslər olacaqlar. Ona görə də onlara lazımi dəstəyin göstərilməsi, ümumilikdə, cəmiyyətimizin inkişafına xidmət göstərəcək.

### Bərabərlik, hesabatlılıq, keyfiyyət

*– Corc Vaşinqton Universitetinin Təhsil və İnsan İnkişafı Məktəbi təhsil sahəsində öz vizyonunu nədə görür? Hansı dəyərlərə əsaslanır?*

– Corc Vaşinqton Universitetinin Təhsil və İnsan İnkişafı Məktəbinin ən başlıca məqsədi təhsildə bərabərliyin və keyfiyyətin təmin edilməsidir. Biz universitet, xüsusilə də Məktəb olaraq inanırıq ki, hər bir şəxs potensiala malikdir və yalnız təhsil işçiləri insan potensialının imkanlarını maksimallaşdıra, önə çəkə bilər. Bizim Məktəbin əsas məqsədi təhsildə bərabərlik, hesabatlılıq, keyfiyyəti təmin etməklə perspektivliyi artırmaq və nailiyyətlər boşluğunu maksimum dərəcədə azaltmaqdır. Bu, bizim bir şüarımızdır. Biz inanırıq ki, əgər təhsildə bərabərliyi, hesabatlılığı və keyfiyyəti təmin edə biləriksə, onda yüksək effektivlik və səmərəliliyə nail olmaq olar. Bu, sonda nailiyyət boşluğunu maksimum dərəcədə azaldır.

*– Təhsil və İnsan İnkişafı Məktəbinin dekanı cənab Maykl Foyer Bakıdakı çıxışlarında təhsildə liderlik məsələsini dilə gətirdi. İkili diplom proqramı tələbələrimizə təhsillə yanaşı, liderlik sahəsində nə kimi töhfələr verə bilər?*

– Qeyd edim ki, təhsildə liderlik çox vacib bir nüansdır. Təhsil elə bir sahədir ki, burada qayğı, istək və əzmkarlıq tələb olunur. Bu xüsusiyyətləri özündə cəmləşdirmək xüsusi bir liderlik tələb edir. Bizim proqramın məqsədlərindən biri də tələbələrdə qeyd olunan xüsusiyyətləri birləşdirməklə onların qabiliyyətlərini, bacarıqlarını üzə çıxarmaq və təhsil sahəsində aparıcı liderlərə çevrilməkdir.

### "Proqrama hər iki tərəfdən yüksək peşəkarlar cəlb olunub"

*– Corc Vaşinqton Universitetinin öz təhsil ənənələri var. Necə bilirsiniz, ADPU ilə həyata keçirdiyiniz proqram Corc Vaşinqton təhsil ənənələrinin Azərbaycan təhsil sisteminə transformasiyasına nə kimi töhfələr verə bilər?*

– Bəli, Corc Vaşinqton Universitetinin özünəməxsus təhsil ənənələri var. Bilirsiniz, Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə həyata keçirilən proqram bu ənənələrin Azərbaycan təhsil sisteminə transformasiyasına imkanlar yaradacaq. Məncə, bu proqramın ən böyük üstünlüyü ondan ibarətdir ki, proqrama hər iki tərəfdən yüksək peşəkarlar cəlb olunub. Təhsil sahəsinə doğrudan da qayğı göstərən insanlar cəlb olunub. Bizim universitetin ən böyük dəstəyi, faydası (benefits) ondan ibarət olacaq ki, biz yalnız tələbələrə bilik kapitalı yaratmırıq, onlarda informasiya toplamağı öyrətmək deyil, xüsusi bacarıqları formalaşdırmaq istəyirik ki, onlar artıq effektiv təhsil işçiləri kimi Azərbaycan təhsil sistemində həyata keçirilən islahatlara dəstək ola və bu prosesdə birbaşa iştirak edə bilsinlər. Corc Vaşinqton Universitetinin Azərbaycan təhsil sisteminə yaradacağı ən böyük imkanlar mükəmməl qabiliyyətə malik olan təhsil işçiləri hazırlamaqdır. Bu təhsil işçiləri birbaşa təhsildə nailiyyətlərin əldə olunmasına və islahatların həyata keçirilməsinə kömək edəcək. Məncə, ADPU üçün bundan yaxşı imkan və böyük dəstək ola bilməz.

*– Fərqli tədris ənənələri, sistemləri olan ADPU və Corc Vaşinqton Universitetinin proqram çərçivəsində tədris planlarının, mühazirə materiallarının uyğunlaşdırılması necə olacaq?*

– Bütün tədris planları və materialları Corc Vaşinqton Universitetinin tədris planına uyğun aparılacaq. Lakin bununla yanaşı Azərbaycan təhsilində tədris üçün nəzərdə tutulan vacib məqamlar da nəzərə alınaraq yerli şəraitə uyğunlaşdırılacaq. Hər bir professor öz tədris planını hazırladıqdan sonra xüsusi yoxlama-baxış prosesindən keçir ki, bu da hər iki universitetin tədris ənənələrini birləşdirərək özündə əks etdirmək üçün şərait yaradır.

### "Məqsədimiz təkcə magistr proqramını həyata keçirmək deyil"

*– Corc Vaşinqton Universiteti ilə ikili diplom proqramı sahəsində əməkdaşlıq ADPU-nun nüfuzuna, beynəlxalq reytinqlərdəki mövqeyinə necə təsir edəcək?*

– Əlbəttə, beynəlxalq reytinqlər mövzusuna gəldikdə, qeyd edilməlidir ki, Corc Vaşinqton Universiteti ilə əməkdaşlıq çərçivəsində ikili diplom proqramının həyata keçirilməsi ADPU-nun mövqeyinə kifayət qədər təsir edəcək. Çünki Corc Vaşinqton Universiteti, bildiyiniz kimi, təkcə Amerikada deyil, bütün dünyada təhsil istiqaməti üzrə tanınmış universitetlərdən biridir. Bizim fakültənin professorları təkcə Amerikada deyil, bütün dünyada təhsil proqramlarında fəal iştirak edirlər. Dünyada təhsil sahəsində inkişafa, təhsil sahəsi üçün mühüm əhəmiyyət daşıyan proqramlarda böyük töhfələr verirlər. Bütün bunlar Pedaqoji Universitetin nüfuzuna böyük köməklik göstərə biləcəkdir. Corc Vaşinqton Universiteti daim öz üzərində çalışır və müasir standartlara cavab vermək üçün hər il strateji planlar hazırlayır və dünyada öndə olan universitetlərdən biri olmağa əmin olmaq istəyir. Bu, təbii ki, Pedaqoji Universitet üçün də mühüm əhəmiyyət daşıyır.

Qeyd edim ki, bizim məqsədimiz bu universitetdə təkcə magistr proqramını həyata keçirmək deyil. Yerli fakültə və universitetin bacarıqlarının yüksək səviyyəyə çatdırılması üçün böyük proqram hazırlanır. Biz ümid edirik ki, layihəni sona çatdıranda artıq Pedaqoji Universitet, onun professorları, idarəçiləri yüksək səviyyədə bilik, bacarıqlarını nümayiş etdirə və dünyada beynəlxalq reytinqlərdə ön sıralarda yer tuta biləcəklər.

Bu kontekstdə mühüm nəticələrdən biri də odur ki, Corc Vaşinqton Universiteti ilə əməkdaşlıq və beynəlxalq ikili diplom proqramının uğurla həyata keçirilməsi Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin gücləndirilməsinə də müsbət töhfələrini verəcək.

### Corc Vaşinqton Universitetinin strategiyası...

*– Necə bilirsiniz, müasir dövrdə universitetlərin sürətli transformasiyası ali təhsil qarşısında nə kimi vəzifələr qoyur?*

– Məncə, hazırda dünya universitetlərinin ən böyük narahatçılığı müasir əmək bazarına uyğun işçilərin hazırlanmasıdır. Ən azından Amerikada ali təhsil müəssisələri qarşısında duran ən böyük vəzifə müasir iş bacarıqlarına uyğun olan işçilər hazırlamaqdır, yüksək iş və peşəkar qabiliyyətlərin, biliklərin formalaşdırılmasıdır. Bu, çox ağır vəzifədir. Bəzən universitetlər bu vəzifəni həyata keçirməkdə çətinlik çəkirlər. Qeyd etdiyim kimi, bu, bir əzmkarlıq tələb edir. Universitet öz vizyonu olaraq anlayır ki, transformasiya üçün, öndə getmək üçün qarşısına müəyyən strategiyalar qoymalıdır. Corc Vaşinqton Universitetinin strategiyası odur ki, bir ali təhsil müəssisəsi olaraq müasir tələblərə uyğun mütəxəssislər və gələcək işçi nəsli hazırlayaq.

### Gənclər öz arzularının, istəklərinin ardınca getməlidirlər

*– Proqrama üz tutan azərbaycanlı tələbələrə nə kimi tövsiyələriniz var?*

– Birincisi, proqramda iştirak üçün dil bacarıqları çox vacibdir. Ona görə də onlar dil bacarıqları üzərində çalışsınlar, çünki bildiyiniz kimi, ingilis dili artıq dünya dilinə çevrilib. Bütün tədqiqatlar, hesabatlar ingilis dilində dərc olunur. Buna görə də dil bacarığı mütləq vacibdir. Akademik dil bacarıqlarını mütləq mükəmməlləşdirsinlər. İkinci tövsiyəm odur ki, əgər bu sahəni seçirlərsə, bu sahəni sevdiklərinə əmin olmalıdırlar. Doğrudan da, insanların həyatlarında dəyişiklik etmək istəyirlərsə, onda seçdikləri təhsil sahəsində işləməlidirlər. Üçüncüsü, sosial-emosional (social emosional) bacarıqların inkişaf etdirilməsidir. Kommunikasiya bacarıqları da çox vacibdir. İndiki dünya tələblərinə cavab vermək üçün mütləq yüksək keyfiyyətli kommunikasiya bacarıqlarının olması mühüm şərtdir. Onlar mütləq kommunikasiya bacarıqları üzərində çalışsınlar. Dördüncüsü, atdıqları bütün addımlara ciddi yanaşmalıdırlar. Əgər tələbələr bu keyfiyyətləri özlərində formalaşdıra bilərlərsə, demək onlar uğur yolundadırlar. Ən böyük tövsiyəm inadkar olmalarıdır. Əgər həqiqətən insan həyatını dəyişə biləcəklərinə inanırlarsa, onda öz arzularının, istəklərinin ardınca getməlidirlər.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Sumqayıt Dövlət Universiteti**

ştatda boş olan vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

**Kafedralar üzrə dosent**

İnformasiya texnologiyaları və proqramlaşdırma - 1 yer
Metrologiya və standartlaşdırma - 1 yer
Fizika və onun tədrisi metodikası - 1 yer
Elektrotexnika və energetika - 1 yer
Kimya və onun tədrisi metodikası - 1 yer
Azərbaycan və Şərqi Avropa xalqları tarixi - 1 yer

**Kafedralar üzrə 0,5 şt. dosent**

Bərk cisim və yarımkeçiricilər fizikası - 1 yer
Fəlsəfə, sosiologiya və politologiya - 1 yer
Azərbaycan dili və onun tədrisi metodikası - 1 yer
Xarici dillər - 1 yer

**Kafedralar üzrə baş müəllim**

İnformatika - 2 yer
İnformasiya və kompüter texnikası - 1 yer
Biznesin təşkili və menecment - 1 yer
Mülki müdafiə, tibbi və fiziki hazırlıq - 1 yer
Biologiya və onun tədrisi metodikası - 1 yer
Fəlsəfə, sosiologiya və politologiya - 1 yer
Xarici dillər - 1 yer

**Kafedralar üzrə müəllim**

Coğrafiya və onun tədrisi metodikası - 1 yer
Azərbaycan və xarici ölkələr ədəbiyyatı - 1 yer
Pedaqogika və psixologiya - 1 yer

**Kafedralar üzrə 0,5 şt. assistent**

Fizika və onun tədrisi metodikası - 1 yer

**Qeyd:** Sənədlər bu elan dərc olunan gündən bir ay (30 gün) müddətində təqdim oluna bilər. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər.

Az. 5008 Sumqayıt, 43-cü məhəllə, SDU, otaq 233

**Əlaqə telefonları:** (012) 448-08-37,
(018) 642-15-06 (daxili: 116)

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

aşağıdakı vakant vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

| № | Kafedra | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | Kinoşünaslıq və ekran dramaturgiyası kafedrası | 0,5 ştat professor | 1 |
| 2. | Xalq çalğı alətləri ifaçılığı kafedrası | baş müəllim<br>müəllim | 1<br>1 |
| 3. | Musiqi tarixi və nəzəriyyəsi kafedrası | dosent | 1 |
| 4. | Ədəbiyyat və dillər kafedrası | dosent<br>baş müəllim | 1<br>1 |
| 5. | Dram teatrı və kino aktyoru kafedrası | dosent | 1 |
| 6. | Səhnə danışığı kafedrası | dosent | 1 |
| 7. | Teatrşünaslıq kafedrası | 0,5 ştat<br>baş müəllim | 1 |

Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini Azərbaycan Respublikası Təhsil nazirinin 07.08.1996-cı il tarixli, 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" sənədin tələblərinə uyğun elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərə bilərlər:

Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili: 100)

Müsabiqədə yüksək peşə-ixtisas hazırlığına, elmi ad və dərəcələrə, lazımi elmi-pedaqoji, idarəetmə təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları da iştirak edə bilərlər.

**REKTORLUQ**